# Daha 2 077 nəfər koronavirusa yoluxub

33 nəfər vəfat edib, 3 725 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 077 yeni yoluxma faktı qeydə alınıb, 3 725 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq" ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 33 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 463 326 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 416 194 nəfər müalicə olunaraq sağalıb, 6 167 nəfər vəfat edib, aktiv xəstə sayı 40 965 nəfərdir.

Texnologiya

# Temperaturu ölçən "ağıllı eynək" hazırlandı



**İspaniyanın Kartaxena Politexnik Universitetinin mütəxəssisləri "ağıllı eynək" təqdim ediblər.**

Trend-in məlumatına görə, həmin eynək məkanda olan şəxslərin temperaturunu növbə gözləmək ehtiyacı olmadan müəyyənləşdirməyə imkan verəcək.

Bundan başqa, eynək yüksəkdəqiqlikli kamera ilə təchiz olunub ki, bu da üzləri müəyyələnşdirməyə kömək edir.

Mütəxəssislər, həmçinin insanlar arasında məsafəni müəyyənləşdirə bilən xüsusi kameraların üzərinə işlərin getdiyini bildirib.




№ 166 (5447), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 sentyabr 2021-ci il (çərşənbə)


# Üç qardaş tər tökür

Xüsusi təyinatlılar hava desant hazırlığı üzrə məşqlər ediblər

**Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş - 2021" beynəlxalq təlimində hava desant hazırlığı üzrə məşqlər icra olunub.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, təlimin planına əsasən hava desant hazırlığı mərhələsində xüsusi təyinatlı bölmələrin helikopter vasitəsi ilə yerdəyişməsi, mühafizənin təşkili və təxliyə üsulları məşq etdirilib.

Məşqlərin gedişatında xüsusi təyinatlıların fəaliyyəti yüksək qiymətləndirilib.

Qeyd edək ki, Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş - 2021" beynəlxalq təlimi sentyabrın 20-dək davam edəcəkdir.




# Türk Şurasının adı dəyişdiriləcək

Türkmənistan təşkilata tamhüquqlu üzv olacaq

**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) gələn ay keçiriləcək Zirvə Görüşündə sədrlik Türkiyəyə keçəcək.**

APA-nın "Anadolu" agentliyinə istinadən verdiyi xəbərə görə, bu barədə AKP sədrinin müavini Binəli Yıldırım Əhməd Yəsəvi Beynəlxalq Qazax-Türk Dövlət Universitetində 2021-2022 tədris ilinin açılış mərasimində çıxışı zamanı bildirib.

(səh.2)

# Qaydalar hazırlanır

Məktəblərdə bufet və idman zallarının açılacağı gözlənilir



**"Məktəblərdə bufet və idman zallarının açılması ilə bağlı Nazirlər Kabinetinin qaydaları hazırlanır".**

Bunu jurnalistlərə açıqlamasında təhsil nazirinin müşaviri Rüstəm Ağayev bildirib.

O deyib ki, bufet və idman zallarının açılması ilə bağlı qərar veriləcək: "Hazırda müzakirələr gedir, amma hansı formada açılması bir neçə gün ərzində bəlli olacaq".

# Ayrılıq oldu

Yaqub Zurufçunun harda dəfn olunacağına ailəsi qərar verəcək



**İndi "seçim imkanları" koronavirusun əlindədir. Bu belə başlanandan bəri nə qədər dəyərli insanları, elm-sənət adamlarını itirdik. Növbədə Təbriz həsrəti ilə yaşayan, "Ayrılıq" mahnısı ilə parçalanmış xalqın harayı olan Yaqub Zurufçu oldu. Səsi, sənəti ilə milyonların qəlbini riqqətə gətirən Yaqub Zurufçunun ölümü sosial media şəbəkələrinin əsas xəbəri oldu.**

Y.Zurufçu 1956-cı il aprelin 8-də tarixi Azərbaycan şəhəri Təbrizdə, Cərəndab məhəlləsində doğulub. 15 yaşında Təbrizin Milli Televiziyasında ilk dəfə çıxış edərək "Evləri var xana-xana", "De gülüm gəlsin, ay nənə", "Dilbər" xalq mahnılarını ifa edib.

1989-cu ildə ilk dəfə sevdiyi Azərbaycana gəlib, meydan hərəkatında "Ayrılıq" mahnısını ifa edib. Sonralar ABŞ-a köçən sənətkar orda vətəndaşlıq alıb, 2009-cu ildən isə Azərbaycan vətəndaşlığını da qəbul edib. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Əməkdar artist fəxri adını alıb.

"Ayrılıq hər yerdə var. Hamı onu yaşayır. Amma onu etiraf edək ki, ayrılıq olmasaydı, heç kəs bəlkə də bir-birini bu qədər sevməzdi... Mən çox sevinirəm ki, bu həmişəyaşar əsər məni sizlərlə tanış etdi. Sizləri mənə, məni də sizlərə sevdirdi. Sərhədləri aşdı bu mahnı, dünyanı gəzdi. Bir ucu Amerika, bir ucu Türkiyə".

**Yaqub Zurufçu 44 günlük Vətən savaşında Qarabağın işğaldan azad olunmasını göz yaşları ilə qarşıladığını "Az.Vision"az-a son müsahibəsində bildirib:** "Şuşa azad olunanda mən Üzeyir bəyi xatırladım. Üzeyirin şəhəri azad olundu. Arzum budur ki, Şuşanın mədəniyyət sarayında Üzeyir bəyin, Bülbülün adına konsert verək. İnanırsınız ki, mən ömrümdə Qarabağa getməmişəm. Azərbaycana ilk dəfə 1989-cu ildə gəlmişəm, o zaman Qarabağda vəziyyət pis idi, oralara gedə bilmədim. Ömrümdə ilk dəfə Qarabağı azad görmək qismətim oldu, bu mənim üçün möcüzədir. Azərbaycan xalqı qeyrətli hərəkət etdi, çirkli əlləri Qarabağın üzərindən atdı".

Bu il avqustun 12-də Yaqub Zurufçunun yazdığı son statusdandır bu misralar. Parçalanmış Azərbaycanın bütövlük rəmzi və səsi olan Yaqub Zurufçu dünən gecə bizləri tərk etdi. Koronavirusdan müalicə aldığı "Yeni klinika"da dünyasını dəyişdi.

Tanrıdan Yaqub Zurufçuya rəhmət diləyir, torpağı yumşaq olsun deyirik. Ruhumuz Bütöv Azərbaycanda qovuşar, ustad!

***P.S*** *"Dəfn yeri ilə bağlı dəqiq məlumatımız yoxdur, ancaq sabah bu barədə nəsə deyə bilərik".*

*Bunu APA-ya açıqlamasında Yaqub Zurufçunun baldızı Məlahət xanım deyib.*

*Mədəniyyət Nazirliyindən isə bildirilib ki, əməkdar artistin harda dəfn olunacağına ailəsi qərar verəcək.*



# "Divin canı şüşədədir"

Gorus-Qafan yolu Azərbaycanın rıçaqlarından sadəcə biridir

Gorus-Qafan yolunun Azərbaycandan keçən hissəsində qurulan Azərbaycan polis postunun təminatı haqda ermənilər paylaşım ediblər. Erməni ombudsmanı Arman Tatoyan postun 9 sentyabrda qurulduğu, 11 sentyabrdan fəaliyyətə başladığını qeyd edib.

(səh.5)

# Qarabağ erməniləri pasportsuz qalıb

"Ermənistan tərəfi də Xankəndi və ətraf rayonlarda yaşayan ermənilərə yaxın durmur"



Qarabağda separatçı-terrorçu rejim ermənilərə "pasport" verməyi dayandırıb. Bu barədə Xankəndidə yaşayan ermənilər sosial şəbəkələrdə yazıblar.

(səh.4)

# "Qüdsdə olanda heç bir yerim ağrımır, Şuşa da elədi"

Novella Cəfəroğlu: "Elçibəyin də ruhu şaddır, indi başına yığıb şəhidləri"



**Qeyri-hökumət təşkilatlarının təmsilçiləri işğaldan azad edilmiş Ağdama, Şuşaya səfər etdi. Sosial şəbəkələrdə fotolar paylaşıldı. Bu, səfərin görünən tərəfləridir. İşğaldan azad edilmiş torpaqlara gedənlərin hamısı orada şəkil çəkdirir, sonra da paylaşır. Amma paylaşılmayanlar da olur; məsələn, göz yaşları kimi. Göz yaşını kiminlə paylaşa bilərsən ki?! O sənindir.**

(səh.4)



# Övladınızı məktəbə göndərməyə bilərsiniz

Valideynlər iki halda iltizam ərizəsi yazacaqlar

**Təhsil Nazirliyi övladını məktəbə göndərmək istəməyən valideynlərin yeni tədris ilində iltizam ərizəsi yazıb-yazmayacağı məsələsini aydınlaşdırıb.**

*Təhsil nazirinin müşaviri Rüstəm Ağayev bildirib ki, övladını məktəbə göndərmək istəməyən valideynlər iki halda iltizam ərizəsi yazacaqlar:*

"Birinci hal yoluxma sayının yüksək olduğu zonaya görə olacaq. Həmin zonada yaşayan valideynlər ərizə yazaraq övladını məktəbə göndərməyə bilərlər.

İkinci hal isə evlərində koronavirus xəstəsi olan, yaxud hər hansı respirator virus infeksiyası olan valideynlərin övladını məktəbə göndərməməsi ilə bağlıdır. Valideynlər xəstəlik barədə məktəb rəhbərliyinə məlumat verməlidir. Bu barədə daha dəqiq məlumat verəcəyik".

# Almaya icazə verilib

Azərbaycandan 65 müəssisə Rusiyaya məhsul ixrac edə biləcək

**Azərbaycandan Rusiya Federasiyasına ixrac olunan pomidor və alma məhsullarına tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması istiqamətində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və aidiyyəti qurumların birgə tədbirləri davam etdirilir.**

AQTA-dan "Şərq"ə verilən məlumata görə, həyata keçirilən birgə tədbirlərin nəticəsi və Agentliyin zəmanəti əsasında "Rosselxoznadzor" tərəfindən 2021-ci il 14 sentyabr tarixindən daha 11 alma istehsalı müəssisəsindən bu ölkəyə alma ixracına icazə verilib.

Qeyd edək ki, bu günə qədər Rusiya Federasiyasının müvafiq qurumu tərəfindən ümumilikdə 65 alma istehsalı müəssisəsindən Rusiyaya məhsul ixracına icazə verilib. Rusiya Federasiyasına alma ixracına icazə verilmiş müəssisələrin ixrac potensialı 144767 ton təşkil edir ki, bu da 2020-ci il ərzində Rusiyaya ixrac olunan 66924 ton alma məhsulunun 216 %-i həcmindədir.





# Prezident icra başçılarına tapşırıqlar verdi

## “Elə işləyin, elə çalışın ki, həm vətəndaşlar sizdən razı olsunlar, həm də rayonların inkişafı sürətlə getsin”

**Dünən Prezident İlham Əliyev Rafiq Cəlilovu Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı və Rəşad Tağıyevi Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edib. Dövlət başçısı qəbulda çıxış edib və yeni başçılara tövsiyə və tapşırıqlarını verib. Ölkə rəhbəri qeyd edib ki, icra başçıları elə çalışmalıdır ki, həm vətəndaşlar razı qalsınlar, həm də rayonların inkişafı sürətlə getsin:**

”Təşəbbüs göstərin, investorları cəlb edin, sahibkarlara şərait yaradın. Əfsuslar olsun ki, real həyatda biz bunun tam əksini görürük. Buraxılmış ciddi nöqsanlar, pozuntular, rüşvətxorluq və korrupsiya hallarına görə həm Cəlilabad, həm də Şəmkir rayonlarının keçmiş icra başçıları cinayət məsuliyyətinə cəlb olunublar. İndi hər kəs görür ki, heç kim qanundan yuxarı dayana bilməz və burada hər kəs qanun qarşısında bərabərdir. Bütün dövlət məmurlarını vəzifəyə təyin edərkən mən bu tövsiyələri verirəm. Ancaq sizdən əvvəl bu vəzifələrdə çalışmış insanlar yalnız şəxsi mənafelərini güdürdülər. Talançılığa, rüşvətxorluğa və korrupsiyaya qurşanmışdılar. İnsanlara laqeyd yanaşırdılar, rayonların qarşısında duran gündəlik problemlərlə yox, öz şəxsi problemləri ilə, şəxsi biznesləri ilə məşğul idilər. İnsanların haqlı narazılığına səbəb olmuşdular. Bütün bu faktlar üzə çıxandan sonra, hər iki icra başçısı öz vəzifələrindən azad edildi və indi onlar qanun qarşısında cavab verəcəklər”. Dövlət başçısı vurğulayıb ki, son illər ərzində bir çox yüksəkvəzifəli məmurlar, yerli və mərkəzi icra orqanlarının rəhbərləri, eyni zamanda, sabiq rəhbərlər, nazirlər, icra başçıları cinayət məsuliyyətinə cəlb ediliblər: ”Nəyə görə? Törətdikləri cinayətlərə görə, əməllərə görə..”.

**“İkinci Qarabağ müharibəsi şanlı Zəfərimiz kimi tarixdə əbədi qalacaq”**

Prezidentin sözlərinə görə, əgər məmurlar öz işində yenə də bu çirkin əməllərdən əl çəkməsələr, onların da aqibəti eyni olacaq: ”Hətta çıxışlarımın birində demişdim ki, əgər təmiz işləmək istəmirsinizsə, getməyin bu işlərə, razılıq verməyin, yoxsa bədbəxt olacaqsınız. Əgər siz bu məsuliyyətin altına girirsinizsə, onda, bax, dediyim kimi, qanun çərçivəsində işləməlisiniz və bu yüksək etimadı doğrultmalısınız. Elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar. Ancaq indi istintaq materiallarının bir çoxunda göstərilir ki, bir neçə rayonun icra başçıları hətta sosial cəhətdən ən həssas təbəqənin nümayəndələrindən də pul, rüşvət alıblar. Yəni bu qədər vicdansızlıq ola bilərmi? Bu insanlar özlərini biabır edirlər, bizim iqtidarımıza ləkə vururlar. Əgər kimsə hesab edir ki, bu, onlar üçün nəticəsiz qalacaq, səhv edir. İnsanların rahatlığı dövlət məmurunun fəaliyyətindən asılıdır. Onlar elə işləməlidirlər ki, daim insanlarla bir yerdə olsunlar. Sizə də deyirəm, siz insanların arasında olmalısınız, onlarla daim təmasda olmalısınız, onların qayğıları ilə yaşamalısınız və çalışmalısınız ki, imkan daxilində onlara kömək edəsiniz”.

> “Sizdən əvvəl bu vəzifələrdə çalışmış insanlar yalnız şəxsi mənafelərini güdürdülər. Talançılığa, rüşvətxorluğa və korrupsiyaya qurşanmışdılar. İnsanlara laqeyd yanaşırdılar, rayonların qarşısında duran gündəlik problemlərlə yox, öz şəxsi problemləri ilə, şəxsi biznesləri ilə məşğul idilər”

**“Aparılan islahatlar nəticəsində bir çox rayon dotasiya almır”**

Dövlət başçısı indi bir çox rayonların artıq mərkəzdən dotasiya almadığını deyib: ”Ancaq 10 il bundan əvvəl demək olar ki, rayonların mütləq əksəriyyəti dotasiya alırdı. Nə üçün? Çünki yerlərdə yığılan vəsait məmurların cibinə gedirdi, dövlət xəzinəsinə, dövlət büdcəsinə yox, məmurların cibinə. Gecə-gündüz elə burada, qapılarda fırlanıb, hansısa maddi dəstək, maddi yardım istəyənlərin sayı kifayət qədər çox idi, icra başçılarını nəzərdə tuturam. Amma aparılan islahatlar nəticəsində indi bir çox rayonlar artıq dotasiya almır. Biz elə etməliyik ki, ümumiyyətlə, rayonların inkişafı yerlərdə, bütün rayonlarda yığılan vəsait hesabına təmin olunsun”.

**“Rüşvətxorluq halları olmasaydı, dövlət büdcəmiz artardı”**

Prezident qeyd edib ki, biz hər bir rayonun inkişafı ilə bağlı lazımi addımlar atacağıq: ”Əsas infrastruktur layihələrinin başa çatması o demək deyil ki, biz bu maliyyə və maddi dəstəyi kəsəcəyik. Yox, verəcəyik, ancaq məqsədyönlü şəkildə, ancaq bütün qaydaları nəzərə almaq şərti ilə verəcəyik. Bir də ki, həbs edilmiş icra başçıları, - təkcə Cəlilabad, Şəmkir rayonlarından söhbət getmir, - digər rayonlarda da tender prosedurlarını kobudcasına pozurdular. Yəni dövlət xətti ilə aparılan layihələrin, dövlət alışlarının icrası ilə əlaqədar tenderlərdə adətən bir neçə icra başçısına, ya da ki, onun müavininə yaxın olan şirkətlər qalib gəlirdilər. Nə üçün? Çünki burada da rüşvətxorluq və mənimsəmə halları kütləvi xarakter alırdı və bu da dövlət büdcəsinə böyük ziyandır. Əgər korrupsiya, rüşvətxorluq halları olmasaydı, baxın, bizim dövlət büdcəmiz nə qədər artardı, bizim imkanlarımız nə qədər genişlənərdi. Biz bu gün aparılan islahatlar nəticəsində əldə edilmiş əlavə mənfəəti, ilk növbədə, insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldirik. İndi ilin doqquzuncu ayıdır. Ancaq şəffaflıq nəticəsində, islahatlar nəticəsində dövlət büdcəsində profisit yaranıb və biz bunun böyük hissəsini yenə də insanların sosial müdafiəsinə yönəldirik”.

**“İş görmək istəyən sahibkar bəzi hallarda problemlərlə üzləşir”**

Ölkə başçısı vurğulayıb ki, rayonlara yerli və xarici investisiyalar cəlb edilməlidir: ”Özəl investisiyalar olmadan ölkəmiz istədiyimiz qədər inkişaf edə bilməz. Dövlət hər şeyi öz boynuna götürə bilməz. Onsuz da bütün ölkə üzrə quruculuq-abadlıq işləri dövlət investisiya xətti ilə görülüb. Sahibkarlara şərait yaradılmalıdır. İmkan verilməlidir ki, gəlsinlər öz vəsaitlərini qoysunlar, iş yerləri yaratsınlar. İş görmək istəyən sahibkar bəzi hallarda problemlərlə üzləşir. Ona qarşı hansısa əsassız tələblər qoyulur, ondan pay istənilir və sahibkar da küsüb gedir: ”Buna da son qoyulmalıdır. Sahibkar əmin olmalıdır ki, o ancaq dövlətin vergisini ödəməlidir, vəssalam. Xüsusilə nəzərə alınmalıdır ki, həm Cəlilabad, həm Şəmkir rayonlarının çox böyük potensialı var, münbit torpaqları var, insan resursları var, hazırlıqlı kadr potensialı var. Hər iki rayonun əhalisi də kifayət qədər böyükdür, digər rayonlarla müqayisədə çox böyük sənaye və kənd təsərrüfatı, turizm potensialı var. Bunlardan səmərəli şəkildə istifadə etmək lazımdır. Bir də demək istəyirəm, insanlar sizdən razı qalsınlar, rayonlarda işlər yaxşı getsin, inkişaf olsun, quruculuq olsun, abadlıq olsun. Belə olan halda siz məndən yüksək qiymət alacaqsınız. Əks təqdirdə, sizi nələr gözləyir, sizdən əvvəl işləyənlərin aqibəti daim sizin gözünüzün qabağında olmalıdır”.

**İsmayıl**

### Bakının işğaldan azad edilməsinin 103-cü ildönümü

Paytaxtda hərbçilərin yürüşləri ilə qeyd olunacaq

**Bakının işğaldan azad edilməsinin 103-cü ildönümü münasibətilə sentyabrın 15-i saat 10.00-da Bakı, Naxçıvan, Gəncə, Sumqayıt və Şuşa şəhərlərinin mərkəzi küçələrində hərbi qulluqçuların yürüşləri keçiriləcək.**

Müdafiə nazirliyindən ”Şərq”ə verilən məlumata görə, yürüşlər ”Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır” devizi altında hərbi orkestrlərin müşayiəti ilə təşkil olunacaq.

*Qeyd edək ki, Bakıda keçiriləcək yürüşlərə iki istiqamətdən - Şəhidlər Xiyabanından və 28 may küçəsindəki Səməd Vurğun bağından start götürüləcək.*

### Türkiyə Prezidenti Zakir Həsənovu və Kərim Vəliyevi qəbul edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan müdafiə naziri Zakir Həsənovu və Baş qərargah rəisi Kərim Vəliyevi qəbul edib.** Bu barədə Türkiyə Prezident Administrasiyası məlumat yayıb. Görüşdə Türkiyə milli müdafiə naziri Hulusi Akar və Yaşar Gülər də iştirak edib.



## Türk Şurasının adı dəyişdiriləcək

Türkmənistan təşkilata tamhüquqlu üzv olacaq

(Əvvəli səh.1)

Onun sözlərinə görə, növbəti Zirvə görüşündə Türkmənistan Türk Şurasına tamhüquqlu üzv olacaq.

”Beləliklə 6 dövlət - Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan təşkilata tamhüquqlu üzv olacaq. Eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı dəyişdirilərək ”Türk Dövlətləri Təşkilatı” olacaq. Macarıstan başda olmaqla müşahidəçi üzv olmaq istəyən 15 ölkə isə növbədə gözləyir”, - deyə o qeyd edib.

Xatırladaq ki, Türkmənistan Türk Şurasına müşahidəçi üzvdür.

# Ceyhun Bayramovun Avropadan qonaqları var

## Azərbaycan ilə Aİ-nin əməkdaşlığının gündəliyində duran müxtəlif məsələlər müzakirə olunub



**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri, səfir Petr Mixalkonu qəbul edib.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən “Şərq”ə verilən xəbərə görə, P. Mixalko etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) nümayəndəsini təyinatı münasibətilə təbrik edib, onun Azərbaycan və Aİ arasında münasibətlərin inkişafına töhfə verecəyinə inandığını bildirib.

Görüşdə tərəflər, Aİ-Azərbaycan arasında mövcud olan səmərəli əməkdaşlıq əlaqələri, o cümlədən son dövr ərzində Azərbaycana həyata keçirilən yüksək səviyyəli səfərlər, Şərq Tərəfdaşlığı ölkələrinin qarşıdan gələn yüksək səviyyəli görüşlərinə hazırlıq, ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edəcək yeni Saziş, eləcə də əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

Görüş zamanı, həmçinin Azərbaycan ilə Avropa İttifaqı əməkdaşlığının gündəliyində duran müxtəlif məsələlər, o cümlədən enerji sahəsində layihələrin həyata keçirilməsi və bu sahədə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilib.

Petr Mixalko Azərbaycanın Avropa İttifaqı üçün mühüm tərəfdaş olduğunu və fəaliyyəti müddətində bu münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

Nazir Ceyhun Bayramov Ermənistanın Azərbaycana qarşı təcavüzü və onun nəticələri, son 28 il ərzində münaqişənin həlli üzrə sərgilədiyi qeyri-konstruktiv yanaşma, 44 günlük müharibə nəticəsində ərazilərimizin işğaldan azad olunması, hazırda bu torpaqlarda aparılanbərpa və quruculuq işləri, ərazilərin gələcək inkişafı planları barədə qarşı tərəfə ətraflı məlumat verib.

*Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.*

# Nikol həqiqətləri anlayır

## Sadəcə o özünü revanşistlərdən qoruyur



**Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan dünən ATƏT-in Minsk qrupunun fransalı həmsədri Stefan Viskonti ilə görüşüb. Görüşdə Qarabağ nizamlanması ilə bağlı fikir mübadiləsi aparılıb.**

Qeyd edək ki, Ermənistanın xarici işlər naziri sentyabrın 6-da ATƏT-in Minsk qrupunun rusiyalı yeni həmsədri İqor Xovayevlə görüşüb.

**Millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin sədri Səməd Seyidov hər iki görüş barədə ”Şərq”ə şərh verib. Millət vəkilinin fikrincə, bu, sözügedən qurumu dirçəltmək cəhdidir:**

“Düşmən öz uğursuzluğunu, acizliyini nümayiş etdirərək beynəlxalq qurumlara proseslərə cəlb etmək istəyir. Kimsə bunu qorxduğu, kimsə revanşist niyyəti, kimsə də siyasi ambisiyaları üçün istəyir. Təkcə Minsk qrupu deyil, digər beynəlxalq təşkilatları, o cümlədən Avropa Şurasını, Avropa Parlamentini də Qarabağa gətirmək istəyirlər. Gəlsinlər, bir söz demirik. Amma bizim mərkəzi idarəetmə strukturlarından icazə alsınlar. Digər tərəflər bunun icazəsiz olmasını istəyirlər. Onların arzusunun heç bir əsası yoxdur. Yəni elə arzu olaraq da qalacaq. Bu təkcə hüquqi yox, həm də fiziki baxımdan mümkünsüzdür”.

**S.Seyidov, həmçinin cəhdlərin əbəs olduğunu bildirib:**

”Qarabağdakı reallıq tamam fərqlidir. Azərbaycan ordusu vəziyyətə nəzarət edir. Düşmən isə sadəcə özünü aldadır. Əslində Baş nazir Nikol Paşinyan həqiqətləri anlayır. Amma o, Koçaryanın, Sarkisyanın siyasətindən istifadə edərək özünü revanşistlərdən qoruyur. Müxtəlif mənasız səyləri isə rəsmi İrəvanı böhrana daha da yaxınlaşdırır. Biz lazımi addımlarımızı atırıq və atacağıq. Qardaş Türkiyə ilə əlaqələrimiz daha da dərinləşməkdə, qarşılıqlı hərbi təlimlərimiz intensivləşməkdədir. Qarşı tərəflər bunlardan nəticə çıxarmalıdırlar”.

**Kənan**

# Kreml İrəvanı yenə "qaynadır"

## Koçaryanın Moskvaya çağrılması bir mesajdır

**Bu günlərdə Ermənistan Baş naziri Nikol Paşinyanın arvadı Anna Akopyanın ”Rusiya bizim müttəfiqimiz yox, düşmənimizdir” açıqlaması ciddi müzakirə olunmaqdadır. Bəyanatın mediada yayılmasının ardınca Ermənistanın keçmiş prezidentlərindən, hazırda müxalif liderlərdən biri olan Robert Koçaryan Moskvaya çağrılıb.**



> Paşinyan bundan sonra daha ehtiyatlı addımlar atacaq

Özü də onu dəvət edən hakim partiyadır. Rəsmi məlumatlarda Koçaryanın siyasi məsləhətləşmələr üçün Rusiyada olduğu bildirilir. Fikrimcə, bu, hər şeydən əvvəl mövcud Ermənistan iqtidarına mesajdır. Məsələ ondan ibarətdir ki, Paşinyanın Qərbyönümlü siyasət yeritdiyi məlumdur. Çünki Avropa, o cümlədən verilən vədlər, göstərilən maliyyə yardımları ən azı hazırkı situasiyada baş naziri təmin edir. Həmin dəstəklərin verdiyi inamla da Paşinyan əmin addımlar atmağa çalışır. Ola bilsin, onun son vaxtlar Azərbaycan və Türkiyə ilə bağlı səsləndirdiyi loyal bəyanatlar, o cümlədən kommunikasiya xətləri barədə dedikləri Moskvanı narahat edir. Doğrudur, Kreml üçtərəfli bəyanata qol çəkənlərdən, dolayısı ilə sənəddəki şərtlərin icrasına görə məsuliyyət daşıyanlardan biridir. Amma Rusiya həmişəkitək yenə də əməli ilə sözünün üst-üstə düşməməyindən çəkinmir. Şimal qonşumuz ”suların tamamilə durulmasında” maraqlı deyil. Çünki bu, Qarabağdakı sülhməramlı mandatına ehtiyac qalmaması və Rusiyanın bölgədəki varlığına son qoyulması deməkdir. Bu mənada Kreml gərginliyin daim qalmasında maraqlıdır. Yəni hazırda Rusiyanın Cənubi Qafqaz siyasəti bir vaxtlar ATƏT-in Minsk qrupunun bölgə ilə bağlı atdığı addımları xatırladır - bu, qaçış döşəyində qaçmaqdan başqa bir şey deyil. Heç bir halda məsafə qət edilmir.

Rusiya Koçaryanı dəvət etməklə Paşinyana demək istəyir ki, irəli getmə. Baş nazirin bundan sonra daha ehtiyatlı addımlar atacağını güman edirəm. Doğrudur, Moskva üçün Ermənistandakı hakimiyyəti birbaşa dəyişmək o qədər də asan deyil. Amma məhz Koçaryanın əli ilə daxildə xaotik vəziyyət yarada, bəlkə də, çevrilişə nail ola bilər. İstənilən halda Moskva bu və ya digər formada Paşinyanın imicinə təsir etmək gücündədir.

İkinci bir tərəfdən, bəlkə bu təzyiq Paşinyanın özünə də sərf edir. Çünki o, məcburiyyətdən, sosial sifarişin təsiri ilə yaxınlaşır. Yəni Moskva həm də İrəvanın ”əlinə oynayır”. Sabah Paşinyan xalq arasına çıxıb asanlıqla cəmiyyəti inandıra bilər ki, başqa yolumuz yox idi.

Əlqərəz, ”sular asanlıqla durulmayacaq”. Necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Kreml Cənubi Qafqazda sabitliyin yaranmaması və beləliklə, guya ona ehtiyac var imiş rəyi yaratmaqdan ötrü əlindən gələni edir və yəqin ki, uzun müddət edəcək.

**Kənan**

“Tehran istəyir ki, Türkiyə bölgəyə gəlməsin. Meqalayihələr reallaşmasın və Zəngəzur dəhlizi açılmasın”



# İranın dərdi Xəzər deyil, Azərbaycan-Türkiyə tandemidir

İsmayıl Qocayev

**Azərbaycan və Türkiyə donanmalarının hərbçilərinin sentyabrın 12-də başa vurduğu hərbi təlimlər İranda ciddi narahatlıq yaradıb. Rəsmi Tehran ölkənin Xarici İşlər Nazirliyinin mətbuat katibi Səid Xətibzadənin dili ilə Türkiyənin Xəzər dənizində hərbi mövcudluğunu ”qanunsuzluq” adlandırıb. Nazirliyin sözçüsü bildirib ki, Xəzər dənizinin hüquqi statusu haqqında müqaviləyə əsasən, beş sahilyanı ölkə istisna olmaqla, heç bir xarici dövlətin burada ordusu olmamalıdır, bu, qadağandır:**

”Türkiyənin Xəzər dənizində hərbi mövcudluğu qanunsuzdur. Məsələ ilə bağlı Xarici İşlər Nazirliyi vasitəsi ilə araşdırma aparırıq”. Bu bəyanat müstəqil xarici və daxili siyasət yeridən Azərbaycana qarşı Tehranın qərəzli münasibətini bir daha sübut edir. Prosesləri diqqətlə araşdırsaq, İranın sözügedən bəyanatının əsassız olduğunu görə bilərik. 12 avqust 2018-ci il tarixli ”Xəzər dənizinin hüquqi statusu haqqında” konvensiyada burada sahilyanı ölkələrə aid olmayan silahlı qüvvələrin mövcudluğunun yolverilməzliyindən bəhs olunur. Lakin Xəzərdə təlimlər keçirən Azərbaycan heç bir sazişin müddəalarını pozmayıb. Təlimlərdə Türkiyə xüsusi təyinatlıları iştirak edib. Lakin Türkiyə Hərbi Dəniz Qüvvələrinin heç bir döyüş gəmisi onlara qoşulmayıb. Azərbaycan Müdafiə Nazirliyi tərəfindən yayılan videolarda kiçik həcmli gəmilərin təlimlərdə iştirak etdiyi aydın şəkildə görünür. Orada nə türk freqatları, nə də sualtı qayıqlar olmayıb. Üstəlik, Azərbaycan öz ərazisini İrana qarşı təcavüz etmək üçün heç kimə verməyib. Türk əsgərləri təlimlərə qatılmaq üçün gəlib və təlimlər başa çatdıqdan sonra da vətənlərinə dönüblər. Digər tərəfdən, konvensiyada ”ərazi suları” anlayışı sahilyanı dövlətin suverenliyinin əhatə etdiyi dəniz zolağı kimi tərif olunub. Azərbaycan Hərbi Dəniz Qüvvələrinin türk hərbçilərinin iştirakı ilə təlimləri ərazi sularımızda keçirilib və sentyabrın 2-də elan olunub, yəni rəsmi Bakı bunu gizlətməyib. Bir gülməli məqam da odur ki, Tehran nümayəndəsi ”Xəzər dənizinin hüquqi statusu haqqında” konvensiyaya istinad etsə də, İranın həmin sənədi ratifikasiya etmədiyini unudub. Elə sırf bu səbəbdən Tehranın sözügedən konvensiyaya istinad etməyə mənəvi haqqı yoxdur.

“Münaqişəni alovlandırmaq üçün fürsət, imkan axtarırlar. Qarabağdakı separatçılara yüklərin daşınmasının da məqsədi budur”



**İranın narahatlığını ”Şərq”ə dəyərləndirən Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev vurğulayıb ki, Tehranın Bakıya mövqeyi dəyişməz olaraq qalmaqdadır.** Partiya sədri bildirib ki, İran müharibədən əvvəl Ermənistana necə dəstək verirdisə, savaşdan sonra eyni yanaşmanı davam etdirir, hətta yardımları, ikili münasibətləri daha da genişləndirir: ”İran tərəfi ermənilərin işğal etdikləri ərazilərimizi uzun müddət talamaqla məşğul olub. Mütəmadi olaraq Azərbaycan dövlətinin gücdən düşməsi, zəifləməsi üçün əllərindən gələni ediblər. Bunu açıq demək lazımdır. İranın davranışları və əməlləri ifşa olunmalıdır. Tehran hökuməti zaman-zaman üstümüzə ayaq açmağa da cəhd göstərib. Xatırlayırsızsa, İranın hərbi təyyarələri Azərbaycan səmasına daxil olmuşdu, qanunsuz uçuşlar həyata keçirmişdilər. Türkiyə qırıcılarının bölgəyə gəlişindən sonra İran təyyarələri bir də ərazimizdə görsənmədi. İndi Xəzər dənizinin hüquqi statusu haqqında müqaviləni bəhanə edirlər. Xəzərin sahilindəki bütün ölkələr təhlükəsizliyə təminat verməli, dostluq münasibətlərini saxlamalıdırlar. Bu müddəanı pozan yeganə xəzəryanı ölkə İrandır. Əgər Tehran hansısa müddəanı görməzdən gəlirsə, saymırsa, o zaman digər bəndlər də qüvvədən düşmüş hesab olunur”.

**F.Quliyev qeyd edib ki, son günlər Azərbaycan-Türkiyə arasında hərbi təlimlərin miqyası genişlənməkdədir:** ”Bakı və Ankara arasında Şuşa Bəyannaməsindən və digər ikili sənədlərdən irəli gələn çoxsaylı addımlar atılmaqda, əməli fəaliyyət ortaya qoyulmaqdadır. İki qardaş ölkə məhz həmin sənədlərə istinad edərək öz ərazimizdə, öz sularımızda hərbi təlimlər keçirirlər. Xəzər dənizinin Azərbaycan sərhədləri daxilində olan hissəsi mavi vətənimizin tərkibidir. Orada atacağımız addımların heç kəsə dəxli yoxdur”.

Sabiq deputat vurğulayıb ki, Azərbaycan-Türkiyə qardaşlığının günbəgün daha da möhkəmlənməsi, hərbi əməkdaşlığın zirvəyə daşınması, ikili əlaqələrə əlavə dost Pakistanın da qoşulması İranı narahat edən əsas məqamlardır: ”Tehranın dərdi Xəzər sularında hansısa kənar dövlətin olub-olmaması deyil, Azərbaycan-Türkiyə tandemidir. İran istəyir ki, Türkiyə bölgəyə gəlməsin. Meqalayihələr reallaşmasın və Zəngəzur dəhlizi açılmasın. Münaqişəni alovlandırmaq üçün yeni fürsət, imkan axtarır. Qarabağdakı separatçılara yüklərin daşınmasının da məqsədi budur. Əlbəttə ki, İranın duyğuları, istəkləri bizim üçün maraqlı deyil”.

# Son illər PKK Türkiyədən ən böyük zərbəni aldı



## Amma indiki terror təşkilatı Amerika və İsrailin nəzarətində, onların himayəsindədir

İsmayıl Qocayev

**Türk ordusu qarşısında aciz qalan PKK/YPG terror təşkilatının Suriyada Türkiyəyə qarşı yeni məkrli plan qurduğu üzə çıxıb. Məlum olub ki, əliqanlı terrorçular vətəndaş müharibəsindən əvvəl ölkə əhalisinin təxminən 10 faizini təşkil edən Suriyadakı xristian bölgələrinə və kilsələrinə top və minaatanla hücum edərək, məsuliyyəti türk ordusunun üstünə atmağı planlaşdırırlar.**

Mülki xristian vətəndaşlar və kilsə kimi ibadət yerlərinə qəsdən zərər vurmaq istəyən təşkilat Türkiyəni beynəlxalq ictimaiyyət qarşısında çətin duruma salmağı hədəfləyir. Müəyyən fasilədən sonra Suriyadakı PKK güclərinin yenidən aktivləşməsi müşahidə olunur. Təhlükəni nəzərə alan Ankara hökuməti Yaxın Şərqdə yenidən hərbi gücdən istifadə etmək məcburiyyətində qalıb. Siyasi şərhçilər hesab edirlər ki, PKK və YPG-nin məhz indiki məqamda fəallaşmasının, Türkiyəyə qarşı çirkin planlar qurmasının pərdəarxası məqamları var. Məkirli layihənin müəllifləri arasında Avropa ölkələri ilə yanaşı, Rusiyanın da olduğu iddia olunur.

**AĞ Partiya başqanının müavini Əhəd Məmmədli ”Şərq”ə deyib ki, son illərdə PKK Türkiyədən ən böyük zərbəni aldı.** Partiya təmsilçisi qeyd edib ki, türk ordusu sadəcə ölkə ərazisində deyil, eyni zamanda Suriya və İraq ərazisində də terrorçulara qan uddurdu: ”PKK-nın SSRİ zamanı kəşfiyyat idarəsi tərəfindən qurulduğu məlumdur. Amma indiki terror təşkilatı Amerika və İsrailin nəzarətində, onların himayəsindədir. ABŞ açıq-aşkar Yaxın Şərqdəki terrorçuları silahlandırır, ən müasir hərbi texnikalarla təchiz edir. PKK-çıların rahat yaşadığı, sərbəst gəzib-dolaşdıqları ölkələrdən biri məhz Amerikadır. Vaşinqton PYD və YPG-ni terror təşkilatı kimi tanımadığını dəfələrlə bəyan edib. Terrorçu qüvvələr müəyyən mərhələlərdə Türkiyəyə qarşı maşa kimi istifadə olunur. Əslində hansısa terror təşkilatı ilə müqayisədə NATO-nun ən güclü ölkələrindən biri olan Türkiyə ilə əməkdaşlıq ABŞ və Avropa ölkələri üçün daha məqbuldur. Terrorçuların istifadə edilməsinin əsas məqsədi Ankaranın həddindən artıq güclənməsinə, dünyada 2-3 söz sahibi ölkələrdən biri olmasına əngəl olmaqdır. Daha doğrusu, bu prosesi mümkün qədər yubatmaqdır”.

**Ə.Məmmədliyə görə, vaxtı ilə Türkiyənin uzun müddət mübarizə apardığı İŞİD də birbaşa Fransa tərəfindən maliyyələşdirilirdi:** ”Türkiyə kəşfiyyatı terrorçulara dəstək verilməsində Avropanın müstəsna ”xidmətlərini” çoxsaylı dəlillərlə isbatlayıb. Qardaş ölkə son illər böyümə, super güc olma yolundadır. Bu prosesin önünü kəsmək qeyri-mümkündür. Türkiyə PKK və bənzərlərinin kökünü tamamilə kəsənə kimi hərbi əməliyyatlara davam edəcək. İlanlar öz yuvalarına qədər qovularaq, başları əziləcək”.



# "Kreml Suriyanı əldən buraxmaq istəmir"

## “Bəşər Əsəd rejimi Rusiya silahlarının satışında müştərilər üçün yaxşı reklam rolunu oynayır”

Yeganə Bayramova

**Suriya Prezidenti Bəşər Əsəd Moskvaya elan olunmamış səfər edib. B.Əsəd Kremldə Vladimir Putinlə danışıqlar aparıb. Rəsmi məlumatlara görə, V.Putin görüş zamanı Suriya prezidentinin siyasi rəqibləri ilə dialoq qurmaq üçün çox iş gördüyünü qeyd edib.**

”Bizim birgə səylərimiz nəticəsində Suriyanın əsas və böyük ərazisi azad edilib. Sizin rəhbərlik etdiyiniz Suriya hökuməti ölkə ərazisinin 90 faizinə nəzarət edir”.

B.Əsəd Suriyaya qarşı tətbiq edilən sanksiyaların insanlıq əleyhinə yönəldiyini və qeyri-qanuni olduğunu deyib. O, Suriya və Rusiya Federasiyası ordularının birlikdə həyata keçirdiyi fəaliyyət nəticəsində terrorun məhv edilməsində əhəmiyyətli nəticələr əldə etdiklərini vurğulayıb.

**Səfərlə bağlı ”Şərq”ə danışan ”Tolerantlıq” Sosial Araşdırmalar İctimai Birliyinin sədri Azər Rəşidoğlu Bəşər Əsədin ölkədə vətəndaş sülhünə nail ola bilmədiyini vurğulayıb:** ”O anlayır ki, rusların yardımı olmadan ona qarşı vuruşan qüvvələrin hərbi potensialını sıradan çıxara bilməyəcək. Rusiya Əsədə yardım etməsə, o, çox pis vəziyyətdə qalacaq və mövqelərini itirəcək. Bəşər Əsədi belə gedişat narahat edir. Ehtimal etmək olar ki, Əsədin Putindən xahişi olub ki, Rusiya qüvvələri Suriyada qalsın. Suriyada Rusiyanın Aralıq dənizindəki tək istinadgahı sayılan Tartus limanı yerləşir. Latakiyadakı aviabaza isə Rusiyanın bölgədəki ikinci hərbi varlığıdır. Bəşər Əsəd rejimi isə Rusiya silahlarının satışında müştərilər üçün yaxşı reklam rolunu oynayır”.

**Analitik qeyd edib ki, Suriyadakı qeyri-sabitliyin Rusiya ilə qonşu ölkələrə yayılması Kremli narahat edir:** ”Onu da qeyd edim ki, Rusiyada, həmçinin postsovet ölkələrində də olan cihadçı qruplar Kreml üçün təhdid hesab edilir. Eyni zamanda Putin Rusiyanın itirdiyi rolu yenidən qaytarmaq arzusundadır. Kreml ABŞ-ın qlobal qüdrətini zəiflətməyə və çoxqütblü dünyanı yaratmağa cəhd edir. Buna görə də Suriya, İran, Çin kimi dövlətlərlə münasibətlərdə əməkdaşlığa can atır. Rusiya özünün nüfuz dairəsində olan yerlərdə rejim dəyişikliyindən ehtiyat edir. Belə yerlərdə rejimin birdən-birə dəyişməsi Rusiya üçün qorxulu senaridir. Kreml hesab edir ki, bir neçə ildə onsuz da Gürcüstan, Ukrayna, Qırğızıstan, Liviya kimi yerlərdə rejimlərin dəyişməsinə kifayət qədər dözüb. Burada baş verən hadisələrdə Qərbin rolu olduqca böyükdür və həmin ölkələr Rusiyanın nüfuz dairəsindən uzaqlaşırlar. Bu baxımdan, Kreml Suriyanı əldən buraxmaq istəmir”.

# Generallarımız Türkiyədə...

## Proseslər vahid ordunun yaranmasına doğru gedir

**Türkiyə Respublikasının Milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirov dünən Türkiyəyə yola düşüb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Səfər çərçivəsində Müdafiə Nazirliyi rəhbərliyinin Türkiyə Respublikasının hərbi rəhbərliyi ilə bir sıra görüşləri, o cümlədən Konya şəhərində keçirilən ”TurAz Şahini-2021” birgə taktiki-uçuş təlimlərinin ”Yüksək səviyyəli müşahidəçi günü”ndə iştirakı planlaşdırılır.

Baş qərargah rəisimiz, general-leytenant Kərim Vəliyev də artıq qardaş ölkədə səfərdədir.

**Mövzu barədə ”Şərq”ə danışan ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun fikrincə, qarşılıqlı səfərlər təəccüblü deyil:**



”Belə hallar tez-tez olur. İki dövlət konfederativ şəraitdə vahid ordunu idarə edirlər. Bunu Azərbaycan hökuməti də təsdiqləyir. Hətta Prezident İlham Əliyev bizim Türkiyə ordusunun kiçik modelini yaradacağımızı bildirmişdi. Yəni baş verənlər vahid ordunun yaranmasına doğru gedir”.

**Kənan**

# Azərbaycan öz ərazisində polis postu qurub



## Ermənilər anlamalıdır ki, yük və sərnişin daşınmalarının həyata keçirilməsi üçün dövlətlərarası müqavilə olmalıdır

İsmayıl Qocayev

**”Ermənistan və İran Azərbaycana təzminat ödəməlidirlər. Hər iki ölkə 30 ilə yaxın bir zaman kəsiyində Gorus-Qafan yolunun Azərbaycan ərazisindən keçən hissəsindən qanunsuz olaraq tranzit yük daşınmaları həyata keçiriblər”.**

*Bu sözləri siyasi şərhçi Elçin Mirzəbəyli deyib. Ekspert bildirib ki, Gorus-Qafan yolunun Azərbaycanın Qubadlı rayonunun ərazisindən keçən hissəsində polis postunun yerləşdirilməsi erməni mediasının əsas müzakirə mövzusuna çevrilib:*

”Müzakirələrdə erməni cəmiyyətinə xas yanaşma - təlaş, qorxu və əsassız iddialar, ittihamlar yer almaqdadır. Ermənistan siyasətçiləri iddia edirlər ki, Gorus-Qafan yolu ”beynəlxalq avtomobil yoludur” və Azərbaycan bu yolun öz ərazisindən keçən hissəsində polis nəzarəti məntəqəsi yerləşdirməklə beynəlxalq hüquq normalarını pozur. Lakin hər zaman olduğu kimi beynəlxalq hüququn hansı norma və prinsiplərinin pozulduğu haqqında danışmırlar. Bu klassik yalançılar unudurlar ki, Gorus-Qafan yolunun bir hissəsi Azərbaycan Respublikasının ərazisindən keçdiyi üçün bu yol vasitəsilə həyata keçirilən bütün daşınmalar beynəlxalq tranzit daşınmalar hesab olunur”.

**E.Mirzəbəyli vurğulayıb ki, ”Sərhəddə yüklərə nəzarətin həyata keçirilməsinin şərtlərinin razılaşdırılması haqqında” konvensiyaya görə, tranzit yük və sərnişin daşınmalarının həyata keçirilməsi üçün dövlətlərarası müqavilə olmalıdır:** ”Bu yolun Azərbaycan ərazisindən keçən hissəsi ilə bağlı isə Azərbaycanla Ermənistan və İran arasında nə ikitərəfli, nə də üçtərəfli müqavilə imzalanıb. Əksinə, 30 ilə yaxın müddət ərzində Ermənistan və İran qanunsuz olaraq Azərbaycan ərazilərindən yük daşınmaları həyata keçirib. Azərbaycan beynəlxalq konvensiyalara uyğun olaraq, ölkə ərazisindən keçən bütün yükləri yoxlaya, gömrük və fitosanitar nəzarəti, eləcə də digər prosedurları həyata keçirə bilər”.



# 103 il əvvəlki Zəfər tarixi

## Qafqaz İslam Ordusunun Qarabağ hərəkatının tarixi böyükdür

Kənan Novruzov

**Tarix özünün qüdrətini, ədalətini dəfələrlə göstərib. Keçən əsrin birinci yarısında, daha dəqiq desək, 1918-ci ildə Azərbaycanın qardaş dəstəyinə ehtiyacı olduğu bir vaxtda Türkiyə yanımızda oldu. Nuru Paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusu gücümüzə güc qatdı, işğalçılara qarşı birlikdə mübarizə apardıq.**

Azərbaycan və Türkiyə hərbi qüvvələrindən təşkil olunan Qafqaz İslam Ordusu əvvəlcə Bakını işğaldan azad etdi. Ardınca isə Qarabağ, Şuşa düşməndən təmizləndi. Bir əsr əvvəl göstərilən qardaş dəstəyini bir il əvvəl də Türkiyə davam etdirdi. Yenə də Türkiyənin mənəvi dəstəyini hiss etdik, diplomatik müstəvidə birgə addımladıq və möhtəşəm qələbə qazandıq. Beləliklə, türkün mübarizəsinin ədalət savaşı olduğunu, qardaşlığımızın qələbə ilə nəticələndiyini dünyaya göstərdik.

**Tarixçi-alim, Firdovsiyyə Əhmədova tarixi analogiya barədə fikirlərini "Şərq"lə bölüşərkən qeyd edib ki, Bakı azad edilənədək Azərbaycan digər ərazilərdə hakimiyyətini bərpa edə bilmirdi.** Bütün güc paytaxt üçün səfərbər olmuşdu. Həmin vaxt Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa ermənilərə sülhməramlı təkliflər etsə, düşmən razılaşmadı. Azərbaycanlıların etnik təmizlənməsi türk komandanlığını narahat edirdi. Bakı azad edildikdən sonra görülən ilk iş Qarabağ hərəkatının təşkili oldu. Savaşdan əvvəl də Nuru Paşa sülh arzusu ilə çıxış etdi. Amma ermənilər yenə təklifə yaxın durmadı".

**F.Əhmədova qələbənin həm də siyasi** səciyyə daşıdığını deyib: "103 il əvvəl Şuşanın azad edilməsi strateji əhəmiyyət daşıyırdı. Zəfərdən sonra Azərbaycan-Osmanlı ordusunun birgə hərbi keçidi baş tutdu. Və həmin qələbə keçən il bir daha təkrarlandı. Fətəli Xan Xoyskinin sözləri ilə desək, bu, öz xoşbəxtliyini başqalarının bədbəxtliyi üzərində quranlara dərs olmalıdır. Ermənistan baş verənlərdən dərs çıxarmalı, normal siyasət aparmalıdır, işğalçılıqdan əl çəkməlidir. Əks halda yenə eyni aqibəti yaşayacağını unutmamalıdır".

**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı isə bildirib ki, Bakının azad edilməsindən sonra Qafqaz İslam Ordusunun qarşısında duran əsas vəzifə Qarabağı düşmənlərdən təmizləmək idi:** "Erməni-daşnaklar Qarabağ ərazilərində, Şuşada soyğunçuluqla, terrorla məşğul idilər. Əskəran keçidi ələ keçirilmiş, Şuşa ilə Qarabağın əlaqəsi kəsilmişdi. Şuşa mühasirədə idi. Beləliklə, oktyabrda hərbi əməliyyatların planı hazırlandı və hərbi əməliyyatlar çox az - cəmi iki həftə çəkdi. Andranik İrana qaçdı. Hətta o, özü erməni mətbuatına etiraf etmişdi ki, Azərbaycan-türk hərbi birləşmələrinə müqavimət göstərə bilmədi. Qarabağın azad edilməsinin təməli məhz belə qoyuldu. Türk qoşun hissələri oktyabrın sonunda imzalanan Mudros sazişindən sonra Cənubi Qafqazdan çıxsalar da, Azərbaycan milli qüvvələri Şuşaya yerləşdi. Yəni zəfərimizin tarixi kökləri 1918-ci ilə gedib çatır".

# "Qüdsdə olanda heç bir yerim ağrımır, Şuşa da elədi"

## Novella Cəfəroğlu: "Elçibəyin də ruhu şaddır, indi başına yığıb şəhidləri"



**Qeyri-hökumət təşkilatlarının təmsilçiləri işğaldan azad edilmiş Ağdama, Şuşaya səfər etdi. Sosial şəbəkələrdə fotolar paylaşıldı. Bu, səfərin görünən tərəfləridir. İşğaldan azad edilmiş torpaqlara gedənlərin hamısı orada şəkil çəkdirir, sonra da paylaşır. Amma paylaşılmayanlar da olur; məsələn, göz yaşları kimi. Göz yaşını kiminlə paylaşa bilərsən ki?! O sənindir.**

Yanaqla üzü aşağı süzüləni də var, ürəyə - qəlbə axanı da. Gizlədiləni də olur. Bəzən insan göz yaşlarının kimsənin görməsini istəməz. Novella xanımsa heç nəyi gizlətməyənlərdəndi. Nə sevincini, nə kədərini. Nə hisslərini. Nə də göz yaşlarını. Ağdamda, Şuşada axıtdığı göz yaşlarından illərlə həsrətində olan əziz bir adamını görüb bağrına basırmış kimi danışdı.

Söhbəti aparır: Məlahət Rzayeva

"Nar ağacları Ağdama əsgər kimi keşik çəkiblər. Ermənilərə göz dağı veriblər. Məndən olsa, Ağdamın gerbində nar ağacı qoyardım"



**"Şərq"in "Axşam söhbəti" Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğludur:**

- Bəzən kinayə ilə deyirlər, "indi hamı qarabağlı olub!". Mən belə hesab edirəm ki, Vətənin bir guşəsinə zərbə dəyirsə, ora hamının olmalıdır. Əgər Naxçıvana bir xətər toxunsaydı, hamı naxçıvanlı olmayacaqdı?! Hara olur-olsun, Azərbaycanın hər yeri Vətəndir. Zərbə Vətənə dəyir. Gəlin, düzünü danışaq, çox adam Qarabağın işğaldan azad ediləcəyinə, torpaqlarımızın geri alınacağına inanmırdı. Qarabağın azadlığı həqiqətən bir möcüzə oldu. Biz Ağdama gedəndə, mən yolboyu ağladım. Gözümün yaşını saxlaya bilmirdim. Çünki o şəhərdə işləmişdim. Oranın gözəl günlərini, firəvan həyatını görmüşdüm. Baxırdım ki, aman Allah, şəhər nə günə qalıb?! Şəhər yoxdu. Küçələr yoxdu e, küçələr!.. Şəhər də itib, küçələr də itib, heç nə qalmayıb. Bu necə bir vəhşilikdi!. Özünə insan deyən bir şəhəri necə bu kökə sala bilir?! Bu vəhşilər (ermənilər) hayıflarını şəhərdən alıblar. Daşdan, betondan, ağacdan hayıf çıxıblar elə bil. Amma yolboyu işləyənləri də gördüm. Böyük "vışka"lara baxırdım və əhsən dedim, orada çalışanlara. O qədər valeh oldum ki, orada aparılan işlərə. Yol çəkirlər, işıq dirəkləri basdırırlar. Xalqımız hər şeyə qadirdir. Torpağımızı azad etdik, inşəllah, tikib-dirçəldəcəyik də. Orda işləyənlərdə mən bu iradəni, qüvvəni gördüm. Bizim insanlarda bir balaca sevgi çatışmır. 44 günlük müharibədə necə bir olduqsa, bir nöqtəyə vurduqsa, iqtidarlı-müxalifətli həmişə belə olsaq, heç kəs qarşımızda dayana bilməz. Azərbaycan qüdrətli dövlətdir. Ancaq bir-birimizin qədrini bilməliyik. Hələ 3 dövlətin birliyi - Azərbaycan, Türkiyə, Pakistan - çoxlarının yerinə qor doldurub.

**- Novella xanım, dediniz Ağdamda işləmisiniz, nə zaman, neçənci illər idi?**

- Deyim də... 1980-ci illər. Orda kəşfiyyat aparmışam, "Xaçınstroy"da.

**- İxtisasınız geoloqdu?**

- Yox, mən kimyaçıyam. Kimya fakültəsini bitirmişdim. Laboratoriyada çalışmağa başladım. Sonra məni Geoloji Kəşfiyyat Ekspedisiyasına daxil etdilər. Torpağın tərkibini öyrənirdim. Bilirsiz, Ağdam torpağında nə qədər faydalı minerallar var? İnşəllah, dövlətimiz hamısını üzə çıxaracaq. Ölkəmizin rifahı üçün istifadə olunacaq onlardan. Mən Kəlbəcərdə də işləmişəm. Kəlbəcər qızılını bizim ekspedisiya kəşf edib. Naxçıvanda da işləmişəm.

**- 1980-ci illərdə Ağdamı görmüşdünüz. İndiki görkəmi - görkəm demək mümkünsə, təbii sizə ağır təsir edib...**

- Ağdam Qarabağın mərkəzi idi. Şuşa yaylaq idi, amma Ağdam şəhər idi. Şuşalılar bazarlığa Ağdama gəlirdi. İndi Ağdamı görəndə, elə bil başıma qaynar su tökdülər... Sonra sevindim. Bilirsiz nəyə? Çoxlu nar ağacları var Ağdamda. Mənə elə gəldi ki, o nar ağacları əsgərlərdi. Bu illər ərzində Ağdama əsgər kimi keşik çəkiblər. Ermənilərə göz dağı veriblər. Məndən olsa, Ağdamın gerbində nar ağacı qoyardım. Şəhərin simvolunu nar ağacı edərdim. O nar ağacları mənə o qədər gözəl təsir bağışladı ki...

**- Bəs Şuşa necədi?**

- Şuşada insan "uçur". Bilmirəm, mən "uçurdum". Yaşlı qadınam. Ayaqlarım ağrıyır, tez yoruluram, piyada çox gəzə bilmirəm. Amma Şuşada gəzirdim, hamı mənə deyirdi ki, Novella xanım, yorulmamısınız? Deyirdim, yox. Yorğunluq hiss etmədim orda. Quş kimiydim. Cıdır düzündə çox həyəcanlandım. Həyəcandan ayaqlarım titrədi, oturdum daşın üstünə. İnana bilmirdim ki, Şuşadayam, Cıdır düzündəyəm. Səidə xanım (hüquq müdafiəçisi Səidə Qocamanlını nəzərdə tutur - red.) ayaqyalın gəzirdi. Deyirdi, torpağı hiss etmək istəyirəm. Şuşaya səfərimiz çox dəyərli gediş idi. Görərdiniz, ordakı adamlar necə sevinirdilər, sevincdən necə uçurdular. Bayraqla şəkil çəkdirirdilər. Bacım qızı həkimdi. Onu da aparmışdım özümlə ki, bizə həkim də lazımdı. Mənə dedi ki, "xala, sən mənə dünyanı bağışladın". Şuşa qayıdıb, qeyrətimiz , namusumuz qayıdıb. Əminəm ki, şəhidlərin ruhu şaddır. Vətən uğrunda şəhid, qazi olanların hamısının ruhu şaddır və onlar hamısı orda Cıdır düzündə sevinirlər, uçuşurlar... Əbülfəz Elçibəyin də ruhu şaddır, indi başına yığıb şəhidləri...

**- Novella xanım, əvvəllər də Şuşada olmuşdunuz?**

- Əlbəttə. Həyat yoldaşım Şuşanın vurğunu idi. Ora bizim ailənin istirahət yeri idi.

**- Şuşa haqqında hər kəs fərqli danışır, amma hamının yekdil olduğu fikir budur ki, Şuşanın havası tamam başqadı...**

- Mən Şuşanı Qüdsə bənzədirəm. İsrailə uşaqların yanına gedəndə, Qüdsə də gedirəm. Bilirsiz ki, Qüds 3 səmavi dinin müqəddəs şəhəridir. Məscidi-Əqsaya gedirəm, ordan çıxıb başqa müqəddəs yerləri bir-bir ziyarət edirəm, oğlum deyir, mama, yorulmursan? Yorulmuram. Qüdsdə olanda heç bir yerim ağrımır. Ağrılarm yox olur. Şuşa da elədir. Bu səfərdə gördüm ki, Şuşada da Qüdsdə olduğum kimiyəm. Şuşada da həyətlərdə, hətta evlərin - ev yoxdu, amma evlərin içində ağaclar boy atıb. Elə bil evlərin qoruyucularıdır. Sakinlər getsə də onlar evləri qoruyub...

**- Novella xanım, bu cür səfərlərin ermənilərin vandalizmini dünyaya çatdırmaqda böyük əhəmiyyəti olduğu bildirilir, amma biz bilirik ki, siz onsuz da həmişə bu missiyanı yerinə yetirmisiniz.**

- Erməni vandallarının törətdiyi vəhşilikləri qeyri-hökumət təşkilatları daha geniş müstəviyə çıxarmalıdır. Bu istiqamətdə əhəmiyyətli işlər görülməlidir. Qarabağa - Ağdama, Şuşaya beynəlxalq təşkilatların nümayəndələri də gedir, xarici qonaqlar da gedir, hamısı bunların hansı vəhşiliklər elədiyini görürlər. Ermənilər xəstə düşüncəli adamlardı. Boylarını yerə soxum. Yaşayırdılar da, rahat. Qanmadılar. İmperiya "arzuları" onları məhv etdi. Başlarına daş düşsün. Başa düşmədilər ki, heç Rusiya imperiya ola bilmir. Sən necə ola bilərsən?! İndi qalıblar qapılarda. Ona-buna yalvarırlar. Azərbaycan sənə qapı açmağa hazırdır. Türkiyə sənə qapı açmaq istəyir. Ağılları olsa, məntiqlə, ağıllı-başlı oturub fikirləşsələr, görərlər ki, Azərbaycanla, Türkiyə ilə münasibətləri düzəltməkdən başqa yolları yoxdur. Ağıllarını başlarına yığmasalar, məlumdur, sonrası necə olacaq. Azərbaycan özünü qorumağa, müdafiə etməyə qadirdi, gücü var. Hücum edə bildiyimizi də gördülər. İndi qoy yaxşı-yaxşı fikirləşsinlər.

# Mədəniyyət Nazirliyi Yaqub Zurufçunun vəfatı ilə bağlı nekroloq yayıb



**Mədəniyyət Nazirliyi Əməkdar artist Yaqub Zurufçunun vəfatı ilə bağlı nekroloq yayıb.**

*Nekroloqda deyilir:*

"Azərbaycan mədəniyyətinə ağır itki üz verib.

Azərbaycanın Əməkdar artisti Yaqub Zurufçu 65 yaşında dünyasını dəyişib.

Yaqub Zurufçu, 1956-cı il aprelin 8-də Təbriz şəhərində dünyaya göz açıb. 11 yaşında xalq mahnıları və bəstəkar mahnıları ilə tez bir zamanda tanış olan Yaqub Zurufçu,15 yaşında Təbrizin Milli Televiziyasında ilk dəfə çıxış edərək "Evləri Var Xana-Xana", "De gülüm gəlsin, ay nənə", "Dilbər" mahnılarını məharətlə ifa edib. Müğənni bu istedadını və oxumaq istəyini atasının uzun müddət Bakıda yaşaması və Azərbaycan musiqisinə olan böyük sevdası ilə əlaqələndirirdi.

Yaqub Zurufçu 19 yaşında Tehran Universitetinin İqtisad fakültəsində təhsilinə başlamış, eyni zamanda Tehran operasının xorunda musiqi fəaliyyətini davam etdirib. 1980-ci ildə Almaniyaya köçən müğənni musiqi təhsilini Hamburq şəhərində vokal sənəti üzrə davam etdirib, daha sonra Amerikanın Florida ştatında Miami şəhərinin Miami Universitetində vokal sənəti üzrə master diplomunu alıb.

Bütün həyatı boyu qəlbində Azərbaycan musiqi sevdası ilə yaşayan Yaqub Zurufçunun dillər əzbəri olan "Ayrılıq" mahnısının hər bir vətəndaşımızın qəlbində xüsusi yeri var. O, 17 sentyabr 2009-cu ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülüb.

Bir neçə gün öncə koronavirusa yoluxan sənətçi müalicə aldığı xəstəxanada dünyasını dəyişib.

**Allah rəhmət eləsin!"**

# Qarabağ erməniləri pasportsuz qalıb

## "Ermənistan tərəfi də Xankəndi və ətraf rayonlarda yaşayan ermənilərə yaxın durmur"



**Azər Qasımov:**

"Əlbəttə, Azərbaycan pasportlarının verilməsinin vaxtı gələcək"



**Qarabağda separatçı-terrorçu rejim ermənilərə "pasport" verməyi dayandırıb. Bu barədə Xankəndidə yaşayan ermənilər sosial şəbəkələrdə yazıblar. Bildiriblər ki, son iki ayda "pasport idarələri" onları geri qaytarır: "Pasport almaq yaşı çatanlar və vaxtı bitmiş sənədi dəyişdirmək istəyənlər "pasportsuz" qalıb. Problemin nə vaxt həll olunacağı haqda məlumat verilmir".**

Ermənilər bildiriblər ki, separatçı-terrorçu rejimin verdiyi "pasportlar"ın ümumiyyətlə ləğv olunacağı deyilir. Məsələ ondadır ki, hələlik Ermənistan tərəfi də Xankəndi və ətraf rayonlarda yaşayan ermənilərə yaxın durmur, onların "qeydiyyatı" ilə maraqlanmır. Bəzi ekspertlərə görə, "pasportlardan" imtina Qarabağ ermənilərinin Azərbaycan vətəndaşlığına hazırlanması prosesinin başlanğıcı sayıla bilər. Lakin bu məsələdə fərqli düşünənlər də az deyil. Onların fikrincə, separatçıların başqa niyyətləri var. Rusiyanın hansısa formada prosesə barmaq etdiyi də istisna edilmir.

**Qarabağda baş verənlərlə bağlı "Şərq"ə danışan BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov deyib ki, qondarma qurumun "rəhbərləri" bölgədən qaçmaq istəyən əhalini süni şəkildə Qarabağda saxlamağa çalışırlar. Onun sözlərinə görə, Rusiya sülhməramlılarının zorla Ermənistandan gətirdiyi ermənilərin əksəriyyəti geri qayıdıblar:** "Qarabağın boşalması Rusiyanın gizli planlarına ziddir. Ermənisiz Qarabağ Azərbaycana təzyiq vasitəsi ola bilməz. Görünür, erməni köçünün qarşısını almaq üçün onları qondarma "pasportlardan" məhrum etməyi qərarlaşdırıblar. Əlbəttə, Azərbaycan pasportlarının verilməsinin vaxtı gələcək. Amma bu, nə Rusiyanın, nə də erməni tərəfinin razılığı ilə olacaq. Bu hal Azərbaycanın bölgədə apardığı siyasətin məntiqi nəticəsi kimi zərurətdən doğacaq. İndiki məqamda əlaqələrin tezliklə bərpasından söhbət getmir. Azərbaycanın Türkiyə və Pakistan hərbçilərinin iştirakı ilə hərbi təlimləri pərdəarxası durumun gərgin olduğunu göstərir. Təlimlər kimlərəsə xüsusi mesajlar vermək üçündür. Rusiya Qarabağda yaşanan bütün proseslərin mərkəzindədir. Moskvanın müdaxilə mexanizmləri bizə məlumdur. Kreml qıcıqlandırıcı ritorikadan, separatçılara açıq dəstəkdən və "status" söhbətini gündəmə gətirməkdən vaz keçmir. Reallıq odur ki, bizim üçün Qarabağ məsələsi tam həll edilməyib. Bunun tam reallaşması üçün dinc üsullar mövcuddur. Dövlətin təşkilatçılığı ilə təxminən 50 min xocalılı, xankəndlili və digər bölgələrin sakinlərinin qocalı-cavanlı, uşaqlı-böyüklü sülhməramlıların yanından keçməklə öz torpaqlarına qayıdışını həyata keçirmək lazımdır. Bununla hadisələr fərqli istiqamətdə cərəyan edəcək. Kim, hansı ölkə xalqımızın öz doğma yurduna köçünün qarşısını ala bilər?!".

**İsmayıl Qocayev**

# "Divin canı şüşədədir"

## Gorus-Qafan yolu Azərbaycanın rıçaqlarından sadəcə biridir



*"Ermənistan-İran arasında əsas daşımalar bu yoldan keçir. Ermənistan alternativ yol çəkmək niyyətindədir, lakin buna əlavə vaxt və vəsait lazımdır"*

İsmayıl Qocayev

**Gorus-Qafan yolunun Azərbaycandan keçən hissəsində qurulan Azərbaycan polis postunun təminatı haqda ermənilər paylaşım ediblər. Erməni ombudsmanı Arman Tatoyan postun 9 sentyabrda qurulduğu, 11 sentyabrdan fəaliyyətə başladığını qeyd edib. Bildirib ki, postda 10 videokamera quraşdırılıb.**

Bu kameralar maşınların nömrələrini qeydə alır və Azərbaycan ərazisinə kimlərin girib-çıxdığını dəqiq müəyyən edir. Postda daimi olaraq polislərlə bərabər, tam silahlanmış əsgərlər də xidmət çəkir: "Xüsusilə əcnəbi sürücülər saxlanılır. Bu isə o deməkdir ki, Gorus-Qafan yolunun Azərbaycan ərazisindən keçən hissəsində Azərbaycan qanunlarına əməl edilməsi tələb edilir". Həmçinin postda müxtəlif gömrük və vergi rüsumlarının tətbiq edildiyi də bildirilib. Bundan əvvəl Ermənistan Milli Təhlükəsizlik Xidməti də bildirmişdi ki, Azərbaycan polisi sentyabrın 12-dən İran nömrəli nəqliyyat vasitələrinin sürücülərinin və yüklərinin sənədlərini yoxlamağa başlayıb. Daxili İşlər Nazirliyinin sözçüsü Elşad Hacıyev yoxlamaların aparıldığını təsdiqləyib. O deyib ki, sözügedən yer Azərbaycanın ərazisidir və orada hərəkət edən avtomobillər müvafiq qaydada yoxlanıla bilər: "Ərazidə ictimai qaydanın, ictimai təhlükəsizliyin təmin olunması məqsədilə qanunvericiliyə uyğun olaraq müvafiq yoxlamalar həyata keçirilir. İşğaldan azad edilmiş bütün şəhər və rayonların ərazisində olduğu kimi Qubadlı rayonunun inzibati ərazisində də daxili işlər orqanlarının əməkdaşları öz xidməti vəzifələrini layiqincə yerinə yetirirlər. Bakı-Yevlax yolunda polis postunun olması nə qədər təəccüblü deyilsə, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində də polis postunun olması tam qanunauyğundur". Dövlət Gömrük Komitəsinin bazar ertəsi yaydığı açıqlamada da bildirilib ki, Azərbaycan ərazisinə daxil olan və ölkə ərazisini tərk edən zaman xarici dövlətlərin avtonəqliyyat vasitələri yol vergisinin vergitutma obyektidir: "Hazırda gömrük orqanları tərəfindən qanunvericilikdə bu istiqamətdə nəzərdə tutulan müddəaların yerinə yetirilməsi bütün ölkə ərazisi üzrə təmin olunur". Göründüyü kimi müharibədən sonra baş verənlər Ermənistanda isterik vəziyyəti daha da körükləyib. Ara-sıra revanşist açıqlamalar səsləndirən erməni siyasətçiləri də mövcud reallığın sürətlə ləhimizə dəyişdiyinin fərqindədir. Erməni tərəfinin etirafları da göstərir ki, rəsmi Bakı Qarabağ daxil, Ermənistanla sərhəd boyu ərazilərdə öz suverenliyini birmənalı bərpa etmək üçün əsaslı addımlar atmaqdadır.

**Baş verənləri "Şərq"ə dəyərləndirən siyasi şərhçi Asif Nərimanlı deyib ki, Azərbaycan öz suveren ərazisindən keçən Gorus-Qafan yolunda təsir rıçağını erməni hərbçilərin sərhədçimizə hücum etməsindən sonra işə saldı. Analitik vurğulayıb ki, yolun iki gün bağlanması nəticəsində həm Ermənistana, həm də bu yoldan yük daşıyan İrana böyük iqtisadi zərər dəydi:** "Bakı İrəvanla yanaşı, Tehrana qarşı da ata biləcəyi addımları göstərdi. Həmin vaxt yolun açılması ilə bağlı danışıqlarda postun qurulacağı tələbi irəli sürülmüşdü. Əslində postun daha əvvəldən qurulduğunu deyə bilərik. İranın Qarabağa yenidən qanunsuz yük daşıması faktları ortaya çıxandan sonra Azərbaycan bu yolda təsir rıçağını işə saldı. Halbuki, müharibədən sonra Azərbaycan öz suveren ərazisindən keçən Gorus-Qafan yolunun 21 kilometrliyində heç vaxt problem yaratmamışdı və bununla regional əməkdaşlığa hazır olduğunu göstərirdi. Azərbaycanın bu əməkdaşlıq nümunəsi Ermənistan və İran tərəfindən sui-istifadə olunurdu. İranın Xankəndinə qanunsuz yük daşıması ilə bağlı dəfələrlə faktlar ortaya çıxıb. Rəsmi Bakı Tehrana bununla bağlı xəbərdarlıqlarını çatdırsa da, bu ölkənin Azərbaycandakı səfirliyi məsələni təkzib etmişdi. Əslində İran xəbərdarlıqlardan sonra prosesi dayandırmalı idi, amma faktlar göstərir ki, əksinə, qanunsuz yük daşımaları bir qədər də artıb. Bu prosesdə İranın günahkar olduğu qədər Laçın dəhlizinə nəzarət edən Rusiya da günahkardır. Rus sülhməramlılar faktiki olaraq, dəhlizdən Qarabağa daşınan qanunsuz yüklərə şərait yaradır".

**Ekspertin fikrincə, qonşuluq münasibətlərinə uyğun olmayan bu davranışa qarşı adekvat addımların atılması zərurəti var idi və Bakı son proseslərdə nəyə qadir olduğunu göstərdi:** "Azərbaycan Laçın dəhlizinə vizual nəzarəti gücləndirdi. Beləliklə, qanunsuz fəaliyyətlərlə bağlı dəqiq informasiyalar əldə edə bildi. Bununla Rusiyanı fakt qarşısında da qoydu. Gorus-Qafan yolunun Azərbaycanın suveren ərazisindən keçən hissəsində yoxlamaları artırdı və bununla İrana "bizim suverenliyimizə qarşı addımlara göz yumulmayacaq" mesajını verdi. Hazırda Bakının təkcə Ermənistan yox, region ölkələrinə qarşı da təsir rıçaqları var. Gorus-Qafan yolu bu rıçaqlardan sadəcə biridir. Əgər İran qanunsuz yük daşımalarına davam edəcəksə və Rusiya Laçın dəhlizində buna şərait yaradacaqsa, Gorus-Qafan yolu yenidən bağlana bilər. Bu, Azərbaycanın suveren haqqıdır. Buna paralel olaraq, Laçın dəhlizində qanunsuz fəaliyyətlərin qarşısının alınması üçün Rusiyaya da xəbərdarlıqlar edilə bilər".

A.Nərimanlıya görə, Gorus-Qafan yolu Ermənistan və İran üçün strateji̇dir: "Ermənistan-İran arasında əsas daşımalar bu yoldan keçir. Ermənistan alternativ yol çəkmək niyyətindədir, lakin buna əlavə vaxt və vəsait lazımdır. Digər tərəfdən, alternativ yol Gorus-Qafan yolu qədər rentabelli deyil. Bu baxımdan, alternativ yol açılandan sonra da İran-Ermənistan arasındakı əsas daşımalar bu yoldan olacaq. Belə demək mümkünsə, "divin canı şüşədədir", yəni iki ölkə üçün vacib yol Bakının əlindədir. Azərbaycan bu strateji rıçaqdan zaman-zaman istifadə edə bilər".




# ABŞ Ukraynanı daha sürətli silahlandıracaq

## Turab Rzayev: "Son proseslər göstərir ki, Qərb Rusiyaya qarşı sərt mövqe tutacaq"

Kənan Novruzov

**Ukrayna Prezidenti Vladimir Zelenski Rusiya ilə müharibə ehtimalını istisna etməyib. Dövlət başçısı "YES Brainstorming" forumu çərçivəsində bu məsələyə toxunub.**

Moderatorun Rusiya ilə müharibənin olması ehtimalı barədə sualına cavab verən Zelenski deyib: "Hesab edirəm ki, ola bilər. Lakin bu, hadisələrin inkişafının yanlış variantı olardı. Bundan sonra Rusiya, Ukrayna, Belarus qonşuluğu mövcud olmayacaq".

*Maraqlıdır, Zelenskinin belə bir bəyanat səsləndirməsi nəyə hesablanıb? "Şərq" olaraq bu barədə siyasi analitik Turab Rzayevlə söhbətləşdik:*

**- Rusiya ilə Ukrayna arasında savaşın başlanması barədə nə düşünürsünüz?**

- Bu ehtimal çoz azdır. Ukraynanın kifayət qədər iqtisadi resursu yoxdur. Ordusunun müəyyən qədər təcrübəsi olsa da, bu, Moskva ilə müharibəyə başlamaq üçün yetərli deyil. Odur ki, Kiyev Qərbə ümid edir.

**- Bəs, Qərbin mövqeyi necədir?**

- Almaniya və Fransa bunu açıq deməmələrinə baxmayaraq, Rusiyaya müəyyən güzəşt tərəfdarıdırlar. Hazırkı situasiyada Bayden administrasiyası da Rusiya ilə toqquşmaq istəmir. Yalnız hərbi şərait olacağı, NATO ölkələrindən biri və ya bir neçəsinin Ukraynanı tam dəstəkləyəcəyi təqdirdə genişmiqyaslı hərbi əməliyyatlar mümkündür. Dediyim kimi, indiki halda isə savaş real deyil.

**- Deməli, Zelenskinin açıqlaması sadəcə daxili auditoriyaya hesablanıb?**

- Belə deməzdim. Donbasda müharibənin başlanması Kremlin özünə də sərf etmir.

**- Niyə?**

- Çünki siyasi imici zəifləyəcək, iqtisadi xərclər sərf olunacaq. Üstəgəl, Qərb Rusiyaya qarşı daha sərt mövqe tutacaq. ABŞ Ukraynanı daha sürətli silahlandıracaq. Ən vacibi isə Putinin ən böyük xəyalı - SSRİ-ni bərpa etmək arzusu, ümumiyyətlə, puç olacaq. Bu mənada Kiyevlə Moskva arasında indiki şəraitdə yalnız lokal toqquşmalar mümkündür.

# Əksər valideynlər durumdan narazıdır




## *Bir şagirdin normal təhsil alması üçün ayda 500 manat lazımdır*

Yeganə Bayramova

**Yeni tədris ilinin başlamasına sayılı günlər qalıb. Araşdırmalar göstərir ki, valideynlər övladlarını tam hazır şəkildə məktəbə göndərmək üçün orta hesabla 220-350 manat arasında xərc çəkməlidir. Ailədə iki və ya daha artıq uşaq varsa, bu zaman çəkilən xərc də dəfələrlə artır. Mövcud qiymətlər valideynləri qane etmir. Onlar məktəb ləvazimatlarının baha olduğunu, qiymətlərin 20-25 faiz artdığını bildirirlər.**

*Məktəb ləvazimatlarının builki qiyməti aşağıdakı kimidir:*

100 vərəqli dəftər- 90 qəpik- 1.10 manat
60 vərəqli dəftər - 70 - 80 qəpik
12 vərəqli dəftər - 0.15 - 0.30 qəpik
Dəftər, kitab üzü - 0.15 - 1.20 manat
Qələm - 0.20 - 1.10 manat
Sadə karandaş - 0.10 - 1 manat
Rəngli karandaş - 1.50 -8 manat
Pozan - 0.10 -2.50 manat
Karandaşyonan - 10 qəpik-1.50 manat
Xətkeş - 0.15 - 1.20 manat
Pərgar dəsti - 2.50 - 6 manat
Marker - 0.30 -1.50 manat
Plastilin - 2 - 7 manat
Sulu boya - 1.20 - 12 manat
Su termosu - 6 - 20 manat
Məktəbli çantaları 10 - 140 manat

Şagirdlərin tədris ilinə başlaması üçün məktəbli formalarının da qiyməti diqqət cəlb edir. Bakı Tikiş Evinin (BTE) satış müdiri Etibar Əzimov məktəbli formalarının 2017-ci ildəki qiymətlərlə eyni olduğunu deyib: "Şalvarlar 15-18 manat, köynəklər və jiletlər 8 manat, məktəbli kostyumları isə yuxarı siniflər üçün 34 ölçüdən 54 ölçüyə kimi 46 manatdır". Məlumdur ki, ötən il pandemiya ilə əlaqədar olaraq məktəblərə gül buketlərinin gətirilməməsi tövsiyə edilirdi. Təhsil Nazirliyinin verdiyi açıqlamada bu il belə məhdudiyyətlərin olmadığı bildirilib. Gül buketi valideynlərə ən ucuz 20-30 manata başa gəlir. İmkanı yaxşı olanlar isə 50 manatdan başlayan gül buketi alırlar.

**Qiymətlərlə bağlı fikirlərini "Şərq"lə bölüşən iqtisadçı-alim Nazim Bəydəmirli qeyd edib ki, dövlət büdcəsinin təxminən 10 faizə yaxını təhsilə xərclənsə də, vətəndaşlar kurslara, repetitorlara əlavə vəsait verməli olurlar:**

"Bu gün istənilən valideyn məktəb ləvazimatlarının qiymətindən narazıdır. Ay ərzində 4-5 repetitor yanına getmək isə ən azı 60-100 manat civarındadır. Deməli, bir şagirdin normal təhsil alması üçün ayda 500 manata yaxın pul lazımdır. Bunların hamısı vətəndaşların büdcəsində nəzərə alınmayan xərclərdir. Orta məktəblərdə normal təhsil sistemi qurulsaydı, belə mənzərənin şahidi olmazdıq".

**N.Bəydəmirli müxtəlif ölkələrdə şagirdlərin çantasından tutmuş, digər məktəb ləvazimatlarının dövlət tərəfindən qarşılandığını xatırladıb:**

"Bu yaxınlarda Rusiya hökuməti də belə qərar qəbul etdi. Hətta tətil vaxtı uşaqların istirahəti üçün ailələrinə müəyyən vəsaitlər ödənilir. Ölkəmizdə isə belə təcrübə yoxdur. Ümumiyyətlə, Azərbaycanda sosial müdafiə sistemi çox zəifdir. Vətəndaşların gəlirləri ilə xərcləri adekvat deyil. Görünməyən xərclər əhalinin maddi vəziyyətini daha da pisləşdirir. Qarşıdan qış mövsümü gəlir. Kommunal xərclər üçün əlavə vəsaitlər lazım olacaq. Təbii qazla bağlı limitin götürülməsi əhaliyə çətinliklər yaradır. Azərbaycan vətəndaşları həm qiymət artımı ilə baş-başa qalıb. Bütün bunların qarşısı alınmalı, normal idarəçilik tətbiq olunmalı, vətəndaşların xərci azaldılmalıdır. Hökumət uşaqlar üçün müavinətlər verməlidir".

# "İranın nə istədiyi hər kəsə məlumdur"

## "Rəsmi Tehran güclü Azərbaycan yox, özündən dəfələrlə zəif olan Azərbaycan dövləti istəyir"



Həşim Səhrablı

**Srağagün Azərbaycan prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə görüşüb. Hikmət Hacıyev görüşlə bağlı tviter səhifəsində paylaşım edib:**

"Bizi ziyarət etdiyiniz üçün sizə təşəkkür edirəm.

Həqiqətən də gündəlikdəki ikitərəfli məsələlər üzrə səmərəli müzakirələr apardıq və gələcək perspektivləri nəzərdən keçirdik".

İran səfiri də görüş barədə tviterdə paylaşım edib: "Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevlə görüşdən məmnunam. İkitərəfli əlaqələrimizin inkişafını və ümumi maraq doğuran məsələləri müzakirə etdik".

Zaman-zaman iki ölkənin rəsmi nümayəndələrinin görüşü keçirilib, müəyyən fikir mübadiləsi aparılıb, ziddiyyətli məqamların aradan qaldırılmasına çalışılıb və qarşılıqlı əlaqələrdən söhbət açılıb. Bu baxımdan belə görüşlərin keçirilməsi gözləniləndir. Ancaq son 44 günlük Qarabağ zəfərindən sonra İranın nə istədiyi suallar doğurur. Çünki cənub qonşumuzun yük avtomobillərinin Qarabağın Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan hissəsinə daxil olmasına dair faktlar yetərincədir.

**Görüşü "Şərq"ə şərh edən hərbi-siyasi ekspert Həşim Səhrablının sözlərinə görə, İran-Azərbaycan münasibətləri dünyadakı digər ölkələr arasında olan münasibətlərdən çox fərqlidir:** Analitik vurğulayıb ki, İran Azərbaycana bütöv dövlət olaraq ərazi iddiasındadır, bunu da açıq formada səsləndirirlər: "Ona görə də İranın milli maraqlarında Azərbaycanın inkişafı və dünyəvi gücə çevrilməsi qəbuledilməzdir. Bu, İranın gələcək dövlət maraqları üçün ciddi təhlükə yaradan amildir. Bu səbəbdən də İran ölkəmizin müstəqillik əldə etdiyi ilk günlərdən anti-Azərbaycan siyasətini yürüdür. Bunu Qarabağa qanunsuz silah daşınmasında, 2001-ci ildə Xəzərin statusu ilə bağlı İran Hərbi Hava Qüvvələrinin Azərbaycana güc göstərməsində, Qarabağ azad edildikdən sonra İranın oradakı separatçılara dəstəyində gördük. Rəsmi Tehran Türkiyənin Azərbaycan Hərbi Dəniz Qüvvələrinin təkmilləşdirilməsində verdiyi dəstəyi qəbul edə bilmədi. İran çox yaxşı başa düşür ki, Azərbaycan xüsusi təyinatlı qüvvələri və digər qoşun növlərində çox inkişaf edib, hərbi gücümüzün qarşısı alınmaz nöqtədədir. Ancaq hərbi donanma məsələsində İrandan qat-qat zəifik. Onlar da bunu özləri üçün bir üstünlük kimi qoruyub-saxlamağa çalışırlar. Ona görə də istəmirlər ki, Azərbaycan Xəzərdə güclü bir ölkəyə çevrilsin".

*Hikmət Hacıyevlə iranlı səfirin görüşünə gəlincə, H.Səhrablı qeyd edib ki, bu, Azərbaycan dövlətinin düşünülmüş addımıdır:* "Azərbaycan heç bir halda sərhədlərində özündən güclü və ya zəif olan ölkələrlə qarşıdurma yaşamaq istəmir. Yəni normal dövlətçilik təfəkküründə siyasət yürüdür. Ona görə də Hikmət Hacıyev Prezident Administrasiyasının ən önəmli üzvlərindən biri olaraq İranla Azərbaycan arasındakı mümkün gərginliyi azaltmağa çalışır. Sözügedən təmaslar da bu yöndə olub. Müzakirələrin nə qədər uğurlu olacağı İranın anti-Azərbaycan siyasətinə bağlı olaraq dəyişəcək".

Ekspertin sözlərinə görə, İranın nə istədiyi hər kəsə məlumdur: "Rəsmi Tehran güclü Azərbaycan yox, özündən dəfələrlə zəif olan Azərbaycan dövləti istəyir. Buna görə də Ermənistana bacardığı qədər dəstək verir, Qarabağda separatçıların məhv edilməsinə əngəl yaratmağa çalışır. Hazırda Rusiya İranın yaxın tərəfdaşlarından biridir. Ona görə də Azərbaycanı neytrallaşdırıb, özündən asılı vəziyyətə salmağa çalışır, regionda güc nisbətinin dəyişməsini istəmir. Fikrimcə, İranın anti-Azərbaycan siyasəti davam edəcək".

Yeganə Bayramova

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Aynurə Pənahqızı

**Azərbaycanda sahibkarlıq fəaliyyəti qədim tarixə malik olmaqla böyük inkişaf yolu keçib. Ölkəmizin malik olduğu müxtəlif təbii sərvətlər həm xarici iş adamlarının ölkəyə gəlməsinə, həm də yerli sahibkarlığın inkişafına əvəzsiz şərait yaratdıb. Azərbaycan ən qiymətli sərvətlərdən olan neft ölkəsidir. Hələ XIX əsrdə Azərbaycanda neft hasilatı üzrə dünyada böyük nüfuza malik sahibkarlar, milyonçular yetişib.**

Həmin milyonçuların ölkəmizin iqtisadi inkişafında, xüsusilə neft hasilatı və emalı sənayesinin inkişafında əhəmiyyətli rolu olub. Dövrünün böyük nüfuz sahibləri olan bu insanlar ölkədə binalar, məktəblər, teatrlar, xəstəxanalar tikdirib, əhalinin böyük hissəsini işlə təmin ediblər. Bu günlərdə ölkədə sahibkarlığın daha da inkişafı üçün biznes mühitinin daim yaxşılaşdırılması, müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsulların istehsal edilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir. Sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dəstək tədbirlərinin səmərəsinin yüksəldilməsi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə səbəb olub. Bu gün dövlət-sahibkar münasibətləri inkişaf edir, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılır. Belə ki, sahibkarlara güzəştli şərtlərlə kreditlər verilir, investisiya təşviqi proqramı çərçivəsində müxtəlif layihələr reallaşdırılır, yeni sənaye zonaları yaradılır, müxtəlif ölkələrə ixrac missiyaları təşkil olunur, eləcə də ticarət evləri açılır. Dövlət başçısı İlham Əliyev daim çıxışlarında sahibkarlara mühüm şəraitin yaradılması barədə göstərişlər verir. Ötən gün Prezident İlham Əliyev Rafiq Cəlilovu Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı və Rəşad Tağıyevi Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edərkən vurğulayıb ki, bütün ölkə üzrə bütün quruculuq-abadlıq işləri dövlət investisiya xətti ilə görülüb və sahibkarlara şərait yaradılmalıdır. O, çıxışında vurğulayıb ki, sahibkarlara imkanlar verilməlidir ki, onlar gəlib öz vəsaitlərini qoysunlar və iş yerləri yaratsınlar: "Ancaq iş görmək istəyən sahibkar bəzi hallarda problemlərlə üzləşir, ona qarşı hansısa əsassız tələblər qoyulur, ondan pay istənilir və sahibkar da küsüb gedir, ümumiyyətlə, nə iş yeri yaradır, nə müəssisə yaradır, çıxıb gedir. Bu hallar da var. Buna da son qoyulmalıdır. Sahibkar əmin olmalıdır ki, o ancaq dövlətin vergisini ödəməlidir, vəssalam".

**Azərbaycanda investisiya mühitinin qorunması üçün bir neçə tədbirlərə ehtiyac olduğunu qeyd edən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında vurğulayıb ki, əsas tədbirlərdən biri ölkədə rəqabət məcəlləsinin qəbul olunmasıdır. Ekspert qeyd edib ki, investisiyaların qorunması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi də çox mühümdür:** "Ən əsası isə bu sahədə ədalətli və tez çalışan məhkəmə sistemi tam bərqərar olmalıdır. Çünki bunlar investorlar üçün ən vacib amillərdən biridir. Ümumiyyətlə, regionlarda icra başçılarının investisiyaları cəlb etmək üçün onların səlahiyyətləri o qədər də tam deyil. Yerli icra başçıları ilə bağlı qanunvericilikdə məsuliyyət və səlahiyyət bölgüsü də öz əksini tapmalıdır, yəni onları investorlara cəlb etmək üçün hüquqi baza yaradılmalıdır. Amma ümumilikdə götürəndə investisiyaların qorunması üçün fəaliyyət dövründə süni maneələr aradan qaldırılması vacibdir. Məhkəmə hakimiyyətinin nüfuzunun və ədalətli tez qərar vermə mexanizminin yaradılması investisiya üçün əsas şərtlərindən biridir, bəlkə də birincisidir. Ona görə də tək regionlarda yox, ümumiyyətlə, həm Bakıda, həm də bütün ölkə ərazisində investisiyaların cəlb olunması üçün investisiya mühitinə pis təsir edən amillərin hamısının aradan qaldırılması əsas şərtdir. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı qarşısında duran əsas maneələrdən biri də inhisarçılıqdır. İnhisarçılıq bu gün bütövlükdə ölkə iqtisadiyyatının inkişafı qarşısında ən böyük maneələrdən biridir".



# Ölkədə rəqabət məcəlləsi qəbul olunmalıdır

### Natiq Cəfərli: "Yerli icra başçıları ilə bağlı qanunvericilikdə məsuliyyət və səlahiyyət bölgüsü də öz əksini tapmalıdır"

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Hələ rəqəmlər çox aşağı göstərilir

### Azərbaycan vətəndaşları bu il ən çox apteklərə pul xərcləyiblər



*"Dərmanla bağlı məsələ də ümumi iqtisadiyyatda olan problemlərlə eynidir"*

Aynurə Pənahqızı

**Bu ilin yanvar-avqust aylarında Azərbaycanda istehlakçılar tərəfindən pərakəndə ticarət şəbəkəsində əczaçılıq məhsullarına və tibbi ləvazimatlara 580 milyon manatdan çox vəsait xərclənib.**

Dövlət Statistika Komitəsinin hesabatına görə, bu rəqəm əvvəlki ilin analoji dövrü ilə müqayisədə 31,4 faiz artıb. Cari ilin təkcə avqust ayında sözügedən göstərici 75,1 milyon manat təşkil edib, bu da iyul ayı ilə müqayisədə 5 faiz çoxdur.

**Azərbaycanda statistikanın doğru-dürüst aparılmadığını deyən iqtisadçı-ekspert Nazim Bəydəmirli "Şərq"ə açıqlamasında bildirib ki, əslində deyilən rəqəmlər çox aşağı göstəricidir. Ekspert qeyd edib ki, beynəlxalq ekspertlərin hesablamalarına görə, Azərbaycanda dərman dövriyyəsi təxminən 2 milyard manat civarındadır:** "Nəzərə alaq ki, bir çox adamların Azərbaycan səhiyyəsinə və preparatlarına etimadı yoxdur. Məhz bu səbəbdən də əksər vətəndaşlarımız xaricdən dərman gətizdirir. Hətta bir vaxtlar sosial şəbəkələrdə qonşu respublika dövlətlərindən - Gürcüstan, Rusiya, İrandan dərmanların gətirilməsi ilə bağlı məlumatlar yazılırdı. Ancaq indi pandemiya dövrü olduğuna görə, həm gediş-gəlişə azalıb, həm də qeyri-leqal yollarla dərmanların gəlişi. Ona görə də, hesab edirəm ki, 75 milyon azğalı rəqəmdir".

*N.Bəydəmirli əlavə edib ki, digər xarici ölkələrdə insanlar dərmanlara bu qədər vəsait xərcləmir:* "Çünki həmin ölkələrdə bunun qarşılığını müxtəlif sığorta şirkətləri ödəyir. Azərbaycanda isə ümumiyyətlə, səhiyyənin idarə edilməsi arzuolunan səviyyədə deyil, eləcə də icbari sığorta da. Məhz bu səbəbdən də hökumət qurumlarına ciddi etimadsızlıq var. Hesab edirəm ki, dərmanla bağlı məsələ də ümumi iqtisadiyyatda olan problemlərlə eynidir. Bu mənada hökumət ciddi düşünməlidir. Heç olmasa, Gürcüstan təcrübəsindən istifadə edərək, sosial sahəni, sosial müavinət də daxil səhiyyə sistemini doğru-dürüst idarə etməlidir ki, bu, sosial dövlət anlayışına uyğun olsun".







# Sosial şəbəkəyə giriş şəxsiyyət vəsiqəsi ilə olmalıdır?

Kənan

### Pərvin Əsədov: "Belə olarsa, təhlükəsizlik təmin olunacaq"

### Ələsgər Məmmədli: "Bu platformanın məzmununun dəyişdirilməsi yanlışdır"

**Sosial şəbəkələr son dövrlər medianın flaqmanına çevrilib. Bunu dövrün tələbi kimi qəbul etmək olar. Amma məsələ ondan ibarətdir ki, məhz sosial şəbəkələrin aktuallığının artdığı bir vaxtda dezinformasiya "zibilliyi" gündəmə gəlir.**

Çünki informasiya azadlığı anlayışı ilə anarxiya və "fake news"un sərhədləri itib.

**İT mütəxəssisi Pərvin Əsədov bu barədə "Şərq"ə açıqlamasında ideal çıxış yolunu göstərib:** "Sosial şəbəkələrə giriş şəxsiyyət vəsiqəsi ilə olmalıdır. Bu, daha məqsədəuyğundur. Hər şeydən əvvəl ona görə ki, təhlükəsizlik təmin olunacaq".

**Media hüquqşünası Ələsgər Məmmədli isə təklifi doğru hesab etmədiyini bildirib:** "Hökumət sosial şəbəkələrlə bağlı yenilik edə bilməz. Çünki sosial şəbəkə platformasını təmin edən hökumət deyil. İstifadə şərtləri hər kəsə məlumdur. Yeni şərtlər altında sosial şəbəkələrin məzmununun dəyişdirilməsi isə tamamilə yanlışdır".

# İran yenə öz ampluasındadır

### Tehranın hazırkı ritorikası bizə savaş vaxtından tanışdır

Kənan

**"İranın bu hərəkəti nə qonşuluğa, nə də müsəlmanlığa uyğundur. Nə yaxşı ki, Azərbaycan Xarici işlər naziri məsələyə münasibət bildirib. Fikrimcə, ictimaiyyət də səssiz qalmamalıdır".**

Bu sözləri İrandan Qarabağa yüklərin daşınmasına dair yeni görüntülər barədə "Şərq"ə danışan Azərbaycan Demokrat Partiyasının (ADP) sədr müavini, politoloq Həsrət Rüstəmov deyib. O, Tehranın hazırkı ritorikası ilə müharibə vaxtından tanış olduğumuzu bildirib: "Həmin vaxt Cənubi Azərbaycandakı soydaşlarımız da reaksiya göstərmişdilər. Amma bu da İranı öz ampluasından çəkindirmədi. Deməli, İranın xarici siyasəti Azərbaycana qarşıdır. Rəsmi Bakı da gələcək diplomatiyasında bunu nəzərə almalıdır. Düşünürəm ki, müsəlman dövlətlərini cənub qonşumuzun bu əməli ilə tanış etməli, İranı qınaq obyektinə çevirməliyik".

H.Rüstəmov, həmçinin Rusiyanın mövqeyindən söz açıb: "İran müsəlman dövlətinin torpaqlarını işğal edən tərəfə dəstək olur və özünü islamın himayəçisi kimi təqdim edir. Bu, yolverilməzdir. Moskva və Tehran isə əlbirdilər. Bu iki dövlət 1813-cü ildə imzalanan Gülüstan, 1828-ci ildə qol çəkdikləri Türkmənçay müqavilələri ilə torpaqlarımızı iki yerə böldü. İndi də həmin imperialist siyasətlərini davam etdirirlər. Hər ikisi Azərbaycanın hesabına Cənubi Qafqazdakı maraqlarını təmin etməyə çalışır. Ən təəssüflüsü isə budur ki, xalqın bir hissəsi Rusiya və İranı hələ də Azərbaycana dost bilir".



# Qadınlar işlərinə döndü

Aynurə Pənahqızı

**Əfqanıstanın paytaxtı Kabildə beynəlxalq Həmid Karzai Hava Limanında qadınlar yenidən işə başlayıb. "Şərq" xarici mətbuata istinadən xəbər verir ki, ABŞ ordusu ölkəni tamamilə tərk etdikdən sonra "Taliban"ın nəzarətində olan hava limanında vəziyyət normala dönüb.**

Hava limanının rəhbərliyinin verdiyi məlumata görə, artıq 30-a yaxın qadın müxtəlif şöbələrdə işləməyə başlayıb. Yaxın günlərdə onların sayının 60-a çatacağı bildirilib. Qadınlar əsasən keçid məntəqələrində, sərhəd polisi bölmələrində, texniki və xidmət işlərində işləməyə başlayıblar. Hava Limanı Başçısı Mevlevi Abdulhadi jurnalistlərə müsahibəsində qadınların islami hicab qaydaları çərçivəsində işləyə biləcəyini söyləyib və bütün keçmiş qadın işçilərini yenidən işə dəvət edib. "Taliban"ın bütün keçmiş hökumət işçilərini işlərinə qayıtmağa çağırdığını xatırladan M.Abdulhadi bildirib ki, artıq hava limanının işçiləri nizamlı olaraq işə başlaya bilərlər: "Ehtiyacı olan qadınları nəzərə alaraq, onları da işlərinə qayıtmağa çağırırıq. Qadınlar İslam hicabına riayət edərək, lazım olan yerlərdə işə başlaya bilərlər. Qeyd edim ki, əvvəlki hökumət dövründə fəaliyyət göstərən sərhəd polisləri də hava limanında işlərinə qayıdıb ".

Adının çəkilməsini istəməyən bir qadın işçi işinə yenidən başladığı üçün xoşbəxt olduğunu deyib. O, maaş problemlərinin də "Taliban"ın tərəfindən həll edilməsini istəyib. Qeyd edək ki, beynəlxalq ictimaiyyət, xüsusən ABŞ, Avropa ölkələri və Birləşmiş Millətlər Kabil hava limanının ən qısa müddətdə işə salınmasını istəyib.



*Kabil hava limanı əvvəlki vəziyyətinə qayıdıb*

# Payız depresiyası...

Qısalmış günlər, tutqun hava, boz təbiət...



## Bu fəslin gəlməsiylə bir çox insan xüsusi səbəb olmadan daha kədərli və hüznlü olur

(Əvvəli səh: 8-də)

**Buna da səbəb havanın tez qaralması, soyuq olması və insanların bu səbəblə qapalı mühitdə daha çox vaxt keçirməsidir. Meteohəssas insanlar hava qaralanda özlərini pis hiss edirlər. Adətən, bu cür insanlar tək qalmağa üstünlük verirlər.**

Bu hal təqdir edilmir. Həmin insanların müvəqqəti özlərini narahat hiss etmələri normaldır. Yox, əgər bu, davamlı olarsa, mütləq profilaktik tədbirlər görülməli, psixoloq dəstəyi alınmalıdır. Bu cür insanlar depresiyaya düşməmək üçün öncədən qabaqlayıcı işlər görə bilərlər. Açıq havada daha çox vaxt keçirə bilər, zaman-zaman havanın tez qaralmasına adaptasiya ola bilərlər. Bir sözlə, aktivliyi artırmaq, doğmalarla daha çox vaxt keçirməklə bunun qarşısını almaq olar".

**Həyat dolu insanların belə payız depresiyası yaşadığını deyən psixoloq Vəfa Əkbər isə bildirib ki, əslində payızın gəlməsiylə bir çox insan xüsusi səbəb olmadan daha kədərli və hüznlü olur:** "Qısalmış günlər, tutqun hava, boz təbiət... Bütün bunlar payız depresiyasının yaranmasına səbəb olur. Lakin araşdırmalar göstərir ki, bizim əhvalımızı kədərli, iş qabiliyyətimizi aşağı, davranışımızı apatik edən özözlüyündə təkcə havaların pisləşməsi deyil. Bu fenomenin fizioloji izahı da var. Bir qrup alim hesab edir ki, işığın azalması ilə əhvalın pozulması "bioloji saatlar"ın pozulması nəticəsində baş verir. Depresiyadan əziyyət çəkən insanlarda minimum bədən temperaturu səhər saat 06:00-da müşahidə olunur, normalda isə bu, gecə saat 03:00-da olmalıdır. Buna görə də onlar səhərlər çətin oyanır, gecələr isə pis yatırlar. Bu insanlar 06:00-08:00 arası parlaq işıq terapiyası aldıqda nəinki onların əhvalı düzəlir, həm də bədən temperaturunun minimumu daha erkən vaxta keçir. Bu fizioloji səbəblərdən başqa payız depresiyasının psixoloji səbəbi də var. Payız ilin sonudur. Hər bir insan keçmiş ilin hadisələrinə nəzər salır. Heç də həmişə bütün insanların arzuları, istəkləri reallaşmır. Bu natamamlıq, şəxsiyyət kimi özünü reallaşdıra bilməmək insanda özünə inamsızlıq, əhvalsızlıq yaradır. Bütün bunlardan əlavə isə xroniki streslər, ətrafdakılar tərəfindən insana qarşı irəli sürülən yüksək tələblər, iş və istirahət rejiminin pozulması, natamam yuxu da depresiyaya səbəb olur. Payız depresiyası ilə mübarizə aparmaq üçün ilk növbədə, günü rejimə salmaq, gecələr 6-7 saatdan az olmayaraq yatmaq lazımdır. Qida rasionuna mütləq meyvə və tərəvəzlər daxil edilməlidir. Fiziki fəallığı artırmaq, hərəkət etmək və təmiz havada olmaq mütləqdir. Ən əsası isə insanlar sevdikləri şəxslərlə birlikdə mütləq vaxt keçirməlidir".




## Bakcell abunəçiləri üçün Qarabağ Dirçəliş Fonduna SMS-lə ianə etmək imkanı

**Bakcell abunəçiləri üçün Qarabağ Dirçəliş Fonduna SMS vasitəsilə ianə etmək imkanı yaradılıb.**

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə dəstək göstərmək istəyən abunəçilər öz mobil telefonlarından "8112" qısa nömrəsinə 1, 3, 5, 10, 20, 50 rəqəmlərini yazmaqla SMS göndərərək müvafiq olaraq, 1 AZN, 3 AZN, 5 AZN, 10 AZN, 20 AZN və 50 AZN məbləğində ianə edə bilərlər. Bakcell nömrələrindən SMS-lərin göndərilməsi üçün abunəçilərdən xidmət haqqı tutulmur!

Xatırladaq ki, bu ilin əvvəlində Bakcell şirkəti Qarabağ Dirçəliş Fonduna 1.4 milyon manat məbləğində vəsait köçürüb. Bakcell şirkətinin də daxil olduğu "NEQSOL Holding"in tərkibində olan şirkətlər tərəfindən bu fonda ümumilikdə ianə edilmiş məbləğ 2 milyon AZN təşkil edib.

Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Fərmana əsasən, Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir. (https://qdf.gov.az/)

*Qarabağ Dirçəliş Fonduna digər platformalar vasitəsilə də ianə etmək mümkündür. Ətraflı: ( https://qdf.gov.az/iane-et/)*

### Elan

İbişov Yaşar Əvəz oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

## Səyyad Əlizadənin xanımı da koronadır

O da xəstəxanaya yerləşdirilib, palatadadır



**Xəbər verdiyimiz kimi müğənni Səyyad Əlizadə koronavirusa yoluxub. Onun durumunun ağır olduğu söylənilir. Bununla yanaşı sənətçinin xanımı da korona xəstəsidir.**

Kürəkəni Razim Qarayev "Şərq"ə müğənninin son sağlıq durumu haqda məlumat verib:

"Vəziyyəti bildiyiniz kimidir. Dəyişiklik yoxdur. Süni tənəffüs aparatına qoşulub. Həyat yoldaşını da dünən yerləşdirdik xəstəxanaya, palatadadır. Yüngül keçirir".

## "Bu həyat bizə nələri yaşatmadı..."

Firəngiz Mütəllimovanın paylaşımı izləyicilərin marağına səbəb oldu



Xalq artisti Firəngiz Mütəllimova instaqramda növbəti dəfə paylaşım edib. Onun yazdıqları izləyicilərinin marağına səbəb olub.

"Şərq"in məlumatına görə, aktrisa bunları söyləyib: "Kimlərisə, nələrisə boş verin. Bu həyat bizə nələr yaşatmadı, nələr görmədik ki... Necə sevindik, bəzən də hönkürüb ağladıq. Çünki həyatın yolları çox keşməkeşlidi. Allah səmimi, xoş niyyətli insanları bizdən uzaq eləməsin. Həyatda ən xoşuma gəlməyən kiminsə səni yamsılaması, özünü sənə oxşatmasıdır. Bir sözlə, özünü həlak edib kölgənə çevrilməsidir. Tanrı hər kəsi bildiyi kimi yaradır. Bunu da unutmayaq".

## Nümayiş etdirməyə ehtiyac yoxdur

Şəbnəm Tovuzlu da dəvət ediləndə qazilərin toyuna təmənnasız gedir



**Müğənni Nüşabə Musayeva yaxın günlərdə həmkarlarına çağırış edib. O, ifaçıları qazilərin, şəhid ailələrinin məclislərində təmənnasız iştirak etməyə səsləyib.**

Sənətçi təkbaşına bütün dəvətlərə qatıla bilmədiyini, gündə 3-4 qazi toyunda iştirak etdiyini söyləyib. N.Musayeva aksiyasına digər müğənnilərin də qoşulmasını istəyib. "Şərq"lə həmsöhbət olan Şəbnəm Tovuzlu mövzu haqda bunları söyləyib: "Hər zaman qazilərimiz, şəhid ailələri dəvət edəndə getmişəm. Bunu nümayiş etdirməyə ehtiyac yoxdur. Belə məclislərdən qalmıram. Yardımımız da öz yerində olur.

Təbii ki, getməliyik, borcumuzdur. Sıravi yoxsul, imkanı olmayan insanların da məclislərində təmənnasız iştirak etmişik. Mən on ildir oxuyuram. Kiminsə fikri ilə getməmişəm. Öz fikirlərimlə hərəkət etmişəm, bunda da uduzmuram. Etdiyimi edirəm. Hər kəs məni tanıyır, Allah görür. Kiminsə düşüncəsi mənim üçün önəmli deyil".

## Əməkdar artist stillər haqqında danışıb

"Əksər kişi açıqrəngli şalvar geyinməyi özünə sığışdırmır"



**Əməkdar artist Gülüstan Əliyeva "Bazar düzü" verilişində qonaq olarkən kişilərin stilləri haqda danışıb.**

"Şərq" xəbər verir ki, xanəndə proqramda bunları söyləyib:

"Mentalitetlə əlaqəli deyil. Əksər kişi açıqrəngli şalvar geyinməyi özünə sığışdırmır. Deyir, qadınam ki, bu rəngdə şalvar geyinim? Özlərində qəbul etmirlər. Söyləyirlər ki, kişi ağırbaşlı olmalıdır".

Hazırladı: Samirə

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com




## Artıq "Nar" abunəçiləri "Qarabag Dirçəliş Fondu"na ianə edə bilərlər

**İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətində görüləcək tədbirlərə dəstək olmaq istəyən "Nar" abunəçiləri üçün "Qarabağ Dirçəliş Fondu"na balanslarından birbaşa ianə etmək imkanı yaradılıb.**

Abunəçilər 1, 3, 5, 10, 20 və 50 AZN məbləğlərindən birini seçməklə ianə etmək istədikləri məbləğin müvafiq rəqəmini "8112" qısa nömrəsinə SMS göndərə bilərlər. SMS göndərildikdən dərhal sonra istifadəçiyə cavab olaraq ödənişin statusu ilə bağlı məlumat göndəriləcək.

*Qeyd edək ki, balansdan yalnız ianə olunan məbləğ çıxılacaq və göndərilən hər SMS ödənişsizdir. Hər bir abunəçi bir neçə dəfə fərqli məbləğdə ianə edə bilər. Daha ətraflı məlumatı https://www.nar.az/qarabag-dirchelish-fonduna-destek/ rəsmi səhifəsindən əldə edə bilərsiniz. "Qarabağ Dirçəliş Fondu" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Fərmana əsasən, "Qarabağ Dirçəliş Fondu" Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir. (https://qdf.gov.az/)*

## Azercellin rəqəmsal həlləri ilə yeni tədris ilinə hazırlıq daha rahat oldu

**Şirkət abunəçilərinə Busuu və Bookmate tətbiqlərindən əlverişli şərtlərlə isitfadə imkanı təqdim edir**

Azercell yeni dərs ilinin başlanması münasibəti ilə öz istifadəçiləri üçün "Məktəbə qayıdış" adlı kampaniyasını təqdim edir! Kampaniya çərçivəsində sentyabr ayı ərzində Azercell abunəçiləri "Bookmate" elektron kitabxana tətbiqi və "Busuu" məşhur dil öyrənmə proqramından daha əlverişli şərtlərlə istifadə edə biləcəklər. Ən əsas üstünlüklərdən biri ondan ibarətdir ki, xidmətə yeni qoşulan mütaliəsevərlər və dil biliklərini inkişaf etdirmək istəyən abunəçilər ilk 7 gün ərzində tətbiqdən pulsuz istifadə imkanı əldə edir.

Pandemiya dövründə kitabxanaların bağlı və ictimai yerlərdə yoluxma riskinin yüksək olduğu bir dönəmdə kitablara olan tələbatı ödəmək üçün "Bookmate" ən ideal vasitədir. "Bookmate" tətbiqi iki milyondan çox kitabı rahatlıqla əldə etməyə kömək edir. Hər bir istifadəçi bu tətbiqdə öz zövqünə uyğun müasir nəsr, qeyri-bədii ədəbiyyat, klassik və dedektiv janra və yaxud uşaq ədəbiyyatına dair kitablar tapa bilər.

Məkandan və cihazdan asılı olmayaraq, hətta oflayn rejimdə belə tətbiq vasitəsilə kitabları oxumaqla yanaşı, həm də dinləmək mümkündür ki, bu da "Bookmate" xidmətinin üstünlüklərindən biridir. Bundan əlavə, tətbiqdə müəyyən müddətdə nə qədər kitab oxuyacağını planlaşdırmağı xoşlayan istifadəçilər üçün "Bu ilin məqsədləri" funksiyası da aktivdir. Bu funksiya mütaliəsevərləri daha çox kitab oxumaga sövq edəcək və dostlarıyla gözəl rəqabətə səbəb olacaq. Tətbiqdə azərbaycan, rus, ingilis və bundan əlavə 13 dildə ədəbiyyat seçimi imkanı təqdim edilir. Bookmate cəmiyyətinə qoşulmaqla, həm də öz düşüncələrinizi 1 milyondan çox abunəçi ilə bölüşün. Onu da nəzərinizə çatdırırıq ki, xidmətə Azercell abunəçisi kimi qoşulduqda ayda 7.99 AZN deyil, cəmi 3.50 AZN ödəməklə tətbiqdən faydalanmaq mümkündür. Odur ki, daim yenilənən zəngin kitab kataloqundan ibarət mobil kitabxananızı yaradın. Həftəlik abunə üçün *500#YES, aylıq abunə üçün isə *533#YES yığaraq elə indi Bookmate tətbiqinə qoşulun. Sevdiyiniz kitabları həm oxuyun, həm də dinləyin. Xidmətə müxtəlif platformalar - Azercell-in rəsmi saytı, "Kabinetim" tətbiqi, "ABB Mobile", "Umico" mobil əlavələr üzərindən qoşulmaq mümkündür. Kampaniya çərçivəsində təqdim olunan ikinci xidməti - milyonlarla abunəçisi olan Busuu proqramını digərlərindən fərqləndirən




əsas cəhəti real vaxt rejimində xarici dili öyrənməyi əlçatan etməsidir. Tətbiq üzərindən dərslərə başlamazdan öncə test vasitəsilə hər bir istifadəçinin dil bilmə səviyyəsi qiymətləndirilir. Testin nəticələrinə əsasən abunəçilər üçün fərdi təlim planı və dərs cədvəli tərtib edilir. Busuu istifadəçilərinə A1, A2, B1, B2 səviyyələri üzrə ingilis dilini öyrənmək və ya istiqamətdən asılı olaraq işgüzar, ümumi və yaxud səyahət üçün ingilis dilini seçmək imkanı da təqdim edilir. Hər dərsin sonunda abunəçilərin yerinə yetirdiyi tapşırıqlar yoxlanılır və qiymətləndirilir. Busuu tətbiqindəki "İcma" bölməsindən ümumi maraq dairəsinə görə dil daşıyıcısı olan həmsöhbətlər tapıb onlarla həm ünsiyyət qura, həm də maraqlandığınız sualların cavabını ala bilərsiniz. Önəmli məqamlardan biri isə kursu bitirənlərə dil biliyi səviyyəsini təsdiq edən beynəlxalq "McGraw-Hill" sertifikatının verilməsidir. App Store və Play Market üzərindən Busuu tətbiqinə aylıq 20 AZN deyil, cəmi 3 AZN ödəməklə abunə olun, dünyanın ən çox danışılan 12 dilini (ingilis, rus, fransız, ispan, italyan, alman, portuqal, polyak, yapon, çin, türk və ərəb) rahatlıqla öyrənin. Xidmətə qoşulmaq üçün *969#YES yığın, öyrənmə planınızı seçin, dilinizi zənginləşdirərək nailiyyətlərinizi izləyin.

Azercell yeni tədris ilinə hazırlaşan abunəçilərini bu imkanlardan yararlanmağa dəvət edir və hər kəsə uğurlar arzulayır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1708



## “Bayden bacarıqsız insandır"

Tramp qoşunların Əfqanıstandan çıxarılmasını qınadı

**ABŞ-ın keçmiş prezidenti Donald Tramp 2024 -cü il prezident seçkilərində yenidən seçilmək istəyib-istəməyəcəyi ilə bağlı sualı cavablandırıb:**

”Düşünürəm ki, bizim çoxlu variantlarımız olmayacaq. Bu, ölkəmiz üçün utandırıcıdır”.

”Şərq” ”Sabah.com”a istinadən bildirir ki, Tramp xələfi Co Baydenin Əfqanıstandan çəkilmə prosesində izlədiyi yolu sərt şəkildə tənqid edib: ”Bayden administrasiyasının ABŞ-ı Əfqanıstandan çıxarması ölkəmizin tarixində ən böyük ayıbdır. Əfqanıstana baxanda tamamilə səbəbsiz ölümlər görürük. Əsgər ailələri Bayden əvəzinə mənimlə danışmaq istəyirlər. Bayden ölkəmizin lideri olmaq üçün bacarıqsız bir insandır”.

**Yeganə**

## İt külçə tapdı

“374 sikkənin XIV əsrə aid olduğu ortaya çıxıb”



**Çexiyanın Zlin bölgəsindəki Vsetin qəsəbəsində sahibi tərəfindən gəzintiyə çıxarılan ”Masa” adlı it meşəlik ərazidə sikkələrlə dolu bir qazan tapıb.**

”Şərq” ”Haberglobal.com”a istinadən xəbər verir ki, itin sahibi tərəfindən ”Valasske” Regional Muzeyi səlahiyyətlilərinə təhvil verilmiş saxsı qazan açılmadan əvvəl ”Valasske” xəstəxanasına aparılıb və tomoqrafiya aparatından keçərək müayinə edilib. Müayinələr nəticəsində qazandakı 374 sikkənin Praqa gümüşündən hazırlandığı və XIV əsrə aid olduğu ortaya çıxıb.

**Yeganə**

## “Paltarıma toxunma"

Əfqan qadınlar milli geyimlərdə etiraz etdilər



**Əfqan qadınları sosial mediada kampaniyaya başlayıblar.**

”Şərq” ”Habertürk”ə istinadən xəbər verir ki, onlar rəngli, milli geyimlərlə fotolar paylaşıblar. ”Paltarıma toxunma”, ”Əfqanıstan mədəniyyəti” kimi etiketlərlə fotolar paylaşan qadınlar öz milli mədəniyyətlərini nümayiş etdiriblər. Məlumata görə, bu, ”Taliban”a qarşı etirazdır.

**Kənan**




# Uduşda 10 min dollar var?




## *Azərbaycan da peyvənd olunanlar üçün lotoreya oyunu keçirə bilər*

**Aynurə Pənahqızı**






**Gürcüstanda peyvənd edilən insanlar həvəsləndiriləcək və onlara lotoreyalar vasitəsi ilə pul mükafatı veriləcək. Bu barədə Gürcüstanın milli lotoreya kompaniyası məlumat yayıb.**

Məlumatda qeyd olunub ki, lotoreya həm gündəlik, həm də həftəlik oynanılacaq və nəhayət, dekabrın 31-də final mərhələsi keçiriləcək. Məlumata əsasən, hər gün 160-a yaxın mükafat oynanılacaq. Gündəlik 100-500 lari, həftəlik - 1000, 1500, 5000 və 10 min lari məbləğində mükafatlar oynanılacaq. İlin sonunda yekun lotoreya olacaq və bu mükafat fondu 100 min lari təşkil edəcək. Bəs, Azərbaycanda peyvəndlənmə prosesində niyə bu kimi aksiyalar təşkil olunmur? Məsələn, hər ay ən azı uduşa 10 min dollar qoyub insanları peyvəndlənməyə həvəsləndirmək olar. **Peyvəndlənmə prosesində ilk belə təşəbbüsün Amerika və Avropa ölkələrindən gəldiyini deyən sosioloq Sahib Altay ”Şərq”ə açıqlamasında vurğulayıb ki, əslində bu cür metodlar insan psixologiyasına müsbət təsir edir. Onun sözlərinə görə, Azərbaycanda da bu cür metodların tətbiqi məqsədəuyğundur:** ”Təqribən 2-3 ay bundan öncə Avropa və Amerikadan belə təkliflər irəli sürülmüşdü. Çünki Azərbaycandan fərqli olaraq, Avropa və Amerikada insanlar peyvəndlənməyə məcbur edilə bilməz. Məhz bu səbəbdən də, həmin ölkələr bu cür üsullara əl atırlar. Gürcüstan da Avropaya inteqrasiya etməyə çalışdığına görə eyni metodu tətbiq edir. Təbii ki, bu günləri bütün dünya dövlətlərinin qarşısında yalnız bir məqsəd durur: ”Bir nəfər belə istisna olmamaq şərtilə, (bəzi xəstəlikləri olan insanları çıxmaqla) bütün dünya əhalisi bu peyvəndlənmə prosesindən keçməlidir. Ancaq demokratiyanın hökm sürdüyü toplumlarda insanlar hər şeyə məcbur edilə bilməz, həmçinin də peyvəndlənmə prosesi. Buna görə də həmin dövlətlər hansısa üsullarla insanların psixologiyasına təsir etməyə məcburdurlar. Bu yolla onları könüllü peyvənd edirlər. Onu da qeyd edim ki, bu metodlar üzərində Avropada xüsusi olaraq psixoloq, sosioloq heyətləri işləyir. Onlar isə çalışırlar ki, sonda qəbul olunan qərarlar insanlar üçün zərərli olmasın”.

**Sosioloq əlavə edib ki, peyvəndlənmə faydalı olsa da, digər tərəfdən insanların ona qarşı inamsızlığı var:** ”Məhz bu inamsızlığın qarşısının alınması üçün Avropa ölkələrində bu cür könüllü metodlardan istifadə edilir. Təbii ki, Azərbaycanda da bu, təşkil olunsaydı yaxşı olardı, lakin çox təəssüf ki, bizim ölkəmizdə könüllü adı ilə insanlar peyvəndlənməyə məcbur edilir. Düzdür, bizdə əvvəl qərar çıxdı ki, könüllü olacaq. Lakin ardınca məlum oldu ki, peyvənd olunmayan şəxslər iş yerlərinə buraxılmayacaq. Yəni biz ümumiyyətlə, evdən çıxıb ictimai mühitdə hərəkət edə bilməyəcəyik. Ancaq peyvəndlənmənin bu şəkildə məcburi olması nə məqsədəuyğundur, nə də insanlar üçün xoşdur. Vətəndaşın razılığını qazanaraq, bu işi yerinə yetirmək daha labüd idi. Bundan ötrü də lotoreya kimi digər şirnikləşdirici metodlardan Azərbaycanda da istifadə oluna bilərdi. Həmçinin, insanlara müxtəlif güzəştlər tətbiq edilə bilərdi. Tutaq ki, hər hansı bir işçiyə işlədiyi iaşə obyektindən və yaxud dövlət müəssisəsi tərəfindən bir aylıq əlavə məvacib ödənilə bilərdi, yaxud da ki, hansısa mağazalara alış-verişlərdə müəyyən faizli güzəştlər tətbiq edilə bilərdi və s. Yəni insanları müxtəlif üsullarla peyvəndlənməyə cəlb etmək olardı. Bu da əlbəttə, öz növbəsində peyvəndə qarşı olan inamsızlığı aradan qaldırardı. Bizdə təbii ki, demokratiya olmadığı üçün asan şəkildə insanlar bu prosesə məcbur edildilər və onların qorxmağı heç kimi düşündürmədi. Ümumiyyətlə, karantin dünya əhalisinə böyük psixoloji gərginlik yaşatdı. Bunun ardınca isə peyvəndlənmə haqqında müxtəlif şayiələr yayıldı ki, bu da yenidən insanların psixologiyasını korladı. Təbii ki, indiyə kimi dünya tarixində onlarla karantin hadisəsi olub. Bizim dövrümüzə qədər olan karantinlərdən ən böyüyü 18-ci 19-cu əsrlərin vəba pandemiyası idi. Bu günləri kütlə onlarla maraqlanmır, yalnız elm adamları, təhsilli adamlar maraqlanır. Kütlə belə şeylərlə maraqlanmadığına görə, ”dünya əhalisini qırırlar”, ”kütləvi qırğın olacaq”, ”əhalini qırmaq üçün qəsdən xəstəlik yayırlar” və s. kimi fərqli-fərqli konstrologiyalar irəli sürdülər. Bunun qarşısını almaq üçün dövlət tərəfindən belə metodlardan istifadə olunmalı idi. Azərbaycanda karantindən tutmuş peyvəndlənməyə kimi hər şeydə beynəlxalq karantin protokolları var. Lakin Azərbaycan və onun kimi olan ölkələrdə bu karantin protokollarının heç birinə indiyədək əməl olunmayıb”.




## *Bu fəslin gəlməsiylə bir çox insan xüsusi səbəb olmadan daha kədərli və hüznlü olur*



# Payız depresiyası...

## Qısalmış günlər, tutqun hava, boz təbiət...

**Aynurə Pənahqızı**

**Artıq yay bitib və payızın ilk günlərini yaşayırıq. Payız romantik duyğuların oyandığı, xatirələrin yada düşdüyü fəsildir.**

İlin bu fəsli kimlərdəsə depresiya, tənhalıq və gücün tükənmə dövrüdür. Payızın gəlişi bir sıra hallarda əhval-ruhiyyənin pisləşməsinə, süstlük və iş qabiliyyətinin aşağı düşməsinə səbəb olur. Bəzən elə həmin hisslərin təsiri nəticəsində payız depresiyası yaranır. Həkim və mütəxəssislərin fikrincə, orqanizmdə vitamin çatışmazlığı və azhərəkətli həyat tərzi həmin psixoloji vəziyyəti yaradan başlıca səbəblərdən biridir. Statistikaya görə, dünyada hər beş nəfərdən biri payız depresiyasından əziyyət çəkir. Mövsümi əhval dəyişkənliyi ilə daha çox mütəmadi olaraq stresə məruz qalan, həyatdan narazı, fiziki və psixi sağlamlığı tam olmayanlar üzləşirlər. Payız depresiyası haqda alimlərin və həkimlərin də maraqlı fikirləri var. Onlar düşünür ki, orqanizmdə vitamin çatışmazlığı və az hərəkətli həyat tərzi bu psixoloji vəziyyəti yaradır. Arizona ştatının Tibb Universitetinin tədqiqatçılarının fikrincə isə həddindən artıq nəmişlik, evdəki hörümçək torları depresiyaya gətirib çıxarır. Torpaqdan bizim mənzillərimizə düşən zəhərli mikroskopik göbələklərin rüşeymləri isti və nəm otaqlarda asta-asta yığılır və artır. Bu, allergiyaya, təngnəfəsliyə, baş ağrısına, göz və dəri xəstəliklərinə və s. gətirib çıxara bilər. Nəmişlik yuxuya mənfi təsir edir, iştahanı azaldır və insanın əhvalını pozur. Bunlar da depresiyanı yaradan əlamətlərdəndir. Depresiya insan psixikasını pozan çox ciddi xəstəlikdir. Mövsümi depresiyanın əsas əlamətləri 2-3 həftə boyunca istəksizlik, diqqəti toplaya bilməmək, səhər yuxudan yorğun oyanma, pessimizmə qapılmaq, heç nədən zövq ala bilməmək, iştah pozğunluqları, həddindən artıq durğunluq və gərginlikdir. Bəs, bu depresiyadan necə çıxmaq olar?

Payız depresiyasıyasına düşən şəxslərin daha çox tək qalmağa üstünlük verdiklərin deyən Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmov ”Şərq”ə açıqlamasında bildirib ki, bu cür halların qarşısını almaq üçün daha çox doğmalarla vaxt keçirilməlidir: ”Mövsüm dəyişəndə əhval-ruhiyyədə də bəzi dəyişikliklər olur. İnsan bu aylarda daha həssas olur. Belə hallar payız ayında daha çox müşahidə olunur.



## Alimlərdən inanılmaz iş...

Nəsli kəsilmiş mamontlar təkrar dünyaya gətiriləcək

**4 min il əvvəl nəsli kəsilmiş nəhəng canlılar - mamontlar genetik mühəndisliklə təkrar dünyaya gətiriləcək. Bu ağlasığmaz layihənin rəhbərləri Harvard Universitetinin alimləridir. Harvard alimləri ”bu layihə dünyanı dəyişdirəcək”, deyir.**





Bu necə mümkün olacaq? Genetik mühəndislik sahəsindəki inkişaf nəsli tükənmiş heyvanları yenidən dünyaya qaytarmağa imkan verir. Alimlər nəsli tükənməkdə olan canlıları klonlamağa müvəffəq olmuşdu. Həmçinin min illər əvvəl ölmüş heyvanların sümükləri və skeletlərindən əldə edilmiş DNA düzülüşlərini də bərpa edə bilmişdilər. Harvard Tibb Fakültəsindən George Church 4 min il əvvəl nəsli tükənmiş mamont və buzlaqların uzun dişli nəhəngini geri qaytarmağı qarşısına məqsəd qoyub. Layihəyə 15 milyon dollar investisiya cəlb edilib. Layihə rəhbərləri mamontları geri qaytarmaqla dağılmaqda olan Qütb ekosistemini (buzlaqları) bərpa etməyi, həmçinin mamontlarla genetik yaxınlığı olan və nəsli kəsilməkdə olan Asiya filini də qorumağı düşünürlər. Bəzi alimlər bu fikirdədir ki, mamontlar, atlar, bizonlar ot yeyən canlılar olaraq Yer kürəsinin şimal bölgəsində otlaqları qoruyur, çəmənləri ağır ayaqları altında əzib, ağacları yıxmaqla torpağın alt qatındakı qar təbəqəsini sıxışdırır, bununla da torpağı donmuş halda saxlayırmışlar. Alimlərin fikrincə, nəhəng məməliləri yenidən dünyaya qaytarmaqla pozulmuş ekosistemi canlandıra biləcəklər. Alimlər layihəni qarşıdakı 4-6 ay ərzində gerçəkləşdirməyi düşünür.

**Məlahət**